

# MÖMİNLƏRİN CƏSARƏTİ

HARUN YƏHYA
(ADNAN OKTAR)

Dünyanın dörd tərəfinə yayılmış haqsızlıqları, yaşanan acıları, zülmü və axıdılan qanı gördüyünüz zaman: “Mən tək başıma zülm görənlər üçün nə edə bilərəm ki?” – deyə düşünə bilərsiniz. Amma hər kəsin belə dediyini düşünün... Bu halda, yer üzündə pisliyə qarşı yaxşılığı müdafiə edən bir nəfər belə qalmazdı. Halbuki, hər dövrdə yaxşılığı müdafiə edən insanlar olmuşdur. Onlar qorxmadan önə çıxmış, yer üzündə yaxşılığı bərqərar etməyə çalışmışlar. Bu insanların əsas xüsusiyyəti Allah`dan qorxmaları, vicdanlarının səsini dinləmələri, son dərəcə cəsur davranmaları və məsuliyyətdən qorxmamalarıdır.

Dünyaya yayılmış zülm və haqsızlığın yerinə yaxşılığı, gözəlliyi, ədaləti yerləşdirmək üçün lazım olan şey haqq bilinən yolda cəsur addımlar atmaqdır. Bəlkə də: “İnsanlara yaxşılığı tövsiyə etmək üçün cəsur olmağa nə gərək var?” – deyə düşünə bilərsiniz. Halbuki, cəsarət pisliyin yer üzündən qalxmasını istəyən insanların ən çox ehtiyacı olduqları şeylərdən biridir. Qurana əsaslanan  gerçək cəsarət Quranın hədlərini tamamilə və qüsursuz şəkildə qorumada Allah`dan başqa heç kimdən qorxmadan və çəkinmədən qərarlılıq göstərmək, heç bir şərtdə və heç bir mühitdə Quran əxlaqından güzəştə getməməkdir. Bu kitabda möminlərin Allah sevgisi, Allah qorxusu və Allah`ın rizasını qazanmağa yönəlmiş səmimi istəyə əsaslanan cəsarətləri barədə söz açılacaqdır.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah’ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah’ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد







# MÖMİNLƏRİN CƏSARƏTİ

Harun Yəhya (Adnan Oktar)



# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.



Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq,

uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər fəaliyyətlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu insanlara göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm xidmətin bütün insanlara çatdırılması isə vacibdir. Bəzi oxucularımızın bəlkə bircə kitabımızı da oxuma imkanı yoxdur. Bu səbəbdən hər kitabımızda bu mövzuya xülasə şəklində də olsa bir bölmə ayrılmışdır.
- Kitabların məzmunu ilə bağlı digər cəhəti də nəzərə çatdırmaq lazımdır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri işığında izah edilir, insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət olunurlar. Allah'ın ayələri ilə bağlı bütün mövzular oxuyanın ağlında heç bir şübhə və ya sual doğurmayacaq şəkildə açıqlanır.
- Buradakı izahlarda istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsdə oxunan kitablar" ifadəsinə tamamilə uyğun gəlir. Dini qətiyyətlə rədd edən insanlar belə bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar etmirlər.
- Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən fərdi şəkildə olduğu kimi, qarşılıqlı söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları birlikdə oxumaları, mövzu ilə bağlı öz fikir və təcrübələrini bir-birləri ilə paylaşmaları baxımından faydalı olar.
- Bununla yanaşı sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmət olar. Çünki müəllifin bütün kitablarında sübut və inandırma çox güclüdür. Bu səbəbdən dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına sövq etməkdir.
- Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin isə mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan zövq aldığını ümid etdiyimiz bu kitabla eyni vəsflərə malik olan daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə toplusunun mövcud olduğuna şahid olacaqdır.
- Bu əsərlərdə digər bəzi əsərlərdə görünən, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəs şeylərə qarşı ədəbə və hörmətə diqqət verilməyən üslublara, narahatlıq verən şübhəli və ümidsizliyə sürükləyən izahlara rast gələ bilməzsiniz.

Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi
Qurani-kərim kitabından götürülmüşdür.

www.harunyahya.org - www.harunyahya.net - www.harunyahya.az

# İÇİNDƏKİLƏR


GİRİŞ ....................................................................................................8

QURANA GÖRƏ CƏSARƏT NƏDİR? ...................................11

QURANA ƏSASLANAN CƏSARƏTLƏ
CƏMİYYƏT DƏKİ CƏSARƏT ANLAYIŞININ FƏRQİ .........19

ŞEYTAN İNSANLARA
ÇİRKİN CƏSARƏTİ ƏMR EDİR ............................................25

CƏSARƏTİ NECƏ QAZANMAQ OLAR? ...............................37

PEYĞƏMBƏRLƏRİN VƏ SƏMİMİ MÖMİNLƏRİN
HƏYATLARINDAN CƏSARƏT NÜMUNƏLƏR....................41

NƏTİCƏ ...................................................................................59

ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL XƏTASI ..................................61

# GİRİŞ

Bütün ömrünü məsuliyyət daşımadan yaşamağa alışmış bir insan düşünək. Elə bir insan ki, sadəcə öz qidalanması, gələcəyi, evi, maşını, sahib olduğu malları ilə maraqlanır… Bu insanı ətrafında baş verən hadisələr, dünyanın hər tərəfində davam edən zülm, haqsızlıq, aclıq, axıdılan qanlar, yaşanan əzablar maraqlandırmır. Yer üzünün qarışıqlıq, xaos, nizamsızlıq, təxribat və hər cür haqsızlıqlarla dolu olması onu heç narahat etmir. Haqsız yerə öldürülən insanların, yemək üçün bir tikə çörək belə tapa bilməyən uşaqların varlığına əhəmiyyət vermir. "Mənə toxunmayan ilan min yaşasın" kimi yanlış dünyagörüşünə malikdir, yalnız özünü düşünür və özü üçün yaşayır

Cəmiyyətdə bu cür insanlarla tez-tez rastlaşmaq mümkündür. Belə yaşadıqları təqdirdə dərddən, qəmdən uzaq, rahat olacaqlarını düşünən insanların sayı çoxdur. Halbuki, başqa insanlara zülm edilən, haqsızlıq olunan, əzab verilən mühitdə insanın sadəcə özünü düşünməsi, öz dərdinə çarə axtarması vicdana sığmayan davranışdır.

Bu halda, insanın öhdəsinə düşən böyük məsuliyyətlər vardır. Hamı ac qalan, haqsız yerə yurdlarından sürgün edilən, öldürülən, qətl edilən insanları bu vəziyyətlərindən qurtara biləcək güclü imana sahib ola bilər. Dünyanı bu vəziyyətdən xilas etməyə çalışmaq, ağıl və vicdan sahibi hər insanın vəzifəsidir.

Siz bu sətirləri oxuyarkən: "Görəsən, mən nə edə bilərəm?" - deyə düşünə, yaxud: "Mənim edəcəklərimlə nə dəyişəcək ki?" - deyə bilərsiniz. Lakin hamının belə dediyini düşünün…

Bu halda, yer üzündə pisliklərə qarşı yaxşılıq edən bir nəfər belə qalmazdı. Halbuki, hər dövrdə yaxşılığı qoruyub saxlayan insanlar olub. Bu insanlar qorxmadan fəaliyyət göstərmiş, yer üzündə ədaləti hakim etməyə və qorumağa çalışmışlar. Bu insanların əsas xüsusiyyətləri Allah`dan qorxmaları, vicdanlarının səsinə qulaq asmaları, çox cəsur və səxavətli olmaları, məsuliyyət daşımaqdan qorxmamalarıdır.

Dünyanın hər tərəfinə yayılan zülm və haqsızlıqların əvəzinə yaxşılığı, gözəlliyi və ədaləti gətirmək üçün lazım olan ən əhəmiyyətli xüsus doğru olan yolda cəsur davranmaqdır. Bəlkə də: "İnsanlara yaxşılığı tövsiyə etmək üçün niyə cəsur olmaq lazımdır?" - deyə düşünə bilərsiniz. Halbuki, pisliyin yer üzündən silinməsini istəyən insanların ən çox ehtiyacları olan xüsusiyyətlərdən biri cəsarətdir.

Cəsarət və qərarlılığın yaxşılığı əmr edib pislikdən çəkindirməkdə nə qədər əhəmiyyətli olduğunu anlamaq üçün peyğəmbərlərin və ömrünü Allah`a həsr etmiş müsəlmanların pisliyə qarşı mübarizələrini xatırlamaq lazımdır.

Bu mövzunu düşünmək, əsrlərlə yaxşılığı müdafiə edənlərə kimlərinsə mane olduğunu görmək mövzunun vacibliyini anlamaq cəhətdən əhəmiyyətlidir.

Şübhəsiz, hər dövrdə dünyaya yaxşılığın, gözəl əxlaqın, sülh və rahatlığın hakim olması üçün çalışan insanlarla yanaşı, insanları haqsız yerə öldürən, yurdlarından çıxaran, yer üzündə əxlaqi degenerasiyanı yaymağa, zəif olanı əzməyə, beləliklə, özünü ucaltmağa çalışan çoxlu sayda insan yaşamışdır.

Müsəlmanların hədəfi gözəl əxlaqı insanlar arasında yaymaq olduğu halda, bu insanların hədəfi pisliyi bütün dünyaya yaymaq olmuşdur, buna görə də bütün yaxşı fəaliyyətlərə mane olmaq istəmələrinə heyrətlənməməliyik. Tarix boyu yaşananlar da həmişə bunu göstərmişdir. Gözəl əxlaqı tövsiyə edən peyğəmbərlər və onları

izləyən möminlər hər dövrdə təzyiqlərə məruz qalmışlar. Qarşı tərəf çirkin və əsli olmayan böhtanlarla, müxtəlif üsullarla onları yollarından saxlamaq istəmişdir.

Ancaq yer üzündə yaxşılığın, rahatlığın, gözəl əxlaqın hakim olmasını istəməyənlərin bilmədiyi və heç cür dərk etmədiyi ilahi sirr təcəlli etmişdir: Müsəlmanlar hər zaman **"... Bizim əsgərlərimiz labüd olaraq zəfər çalacaqlar!" (Saffat surəsi, 173)** ayəsində bildirildiyi kimi, inanmayanlara qalib gəlmişlər. Bu, Allah`ın vədidir. Allah Öz yolunda cəsarət və qərarlılıqla mübarizə aparanları bu dünyada inkarçılara qarşı qalib etmiş, axirətdə də səmimi cəhdlərinin qarşılığında cənnəti nəsib edəcəkdir.

Allah`a güvənərək Onun əmr etdiyi gözəl əxlaqı yaşamaq və yaşatmaq üçün cəhd edən hamı Allah`ın sonsuz nemətləri ilə mükafatlanmağı ümid edə bilər. Kim peyğəmbərlərin və səmimi möminlərin göstərdikləri cəsarəti və qərarlılığı göstərər, doğru yolda yorulmadan irəliləyərsə, cənnət əhli olmağı ümid edə bilər. Allah bu mövzu ilə əlaqədar olaraq bir ayədə belə buyurur:

> **Həqiqətən də, iman gətirənlər, hicrət edənlər və Allah yolunda cihad edənlər Allah`ın mərhəmətinə ümid edirlər. Allah bağışlayandır, rəhmlidir. (Bəqərə surəsi, 218)**

Bu kitabda gözəl əxlaqın bir hissəsi olan "cəsarət" mövzusundan bəhs olunacaq. Cəsarətin Quranda verilən həqiqi mənası açıqlanacaq, eyni zamanda, cəmiyyətdə qəbul edilən cəsarət anlayışının yanlış cəhətləri incələnəcək. Həqiqi Qurani cəsarətlə, xalq arasında qəbul edilən və yaşanan cəsarət anlayışı müqayisə ediləcək. Bundan başqa, şeytanın insanları sövq etməyə çalışdığı çirkin cəsarət haqqında danışılacaq və nəhayət Quranda adı keçən peyğəmbərlərin və saleh möminlərin cəsarətindən nümunələr veriləcək.

# QURANA GÖRƏ CƏSARƏT NƏDİR?

Həqiqi cəsarət Quranda bildirildiyi kimi, Allah`ın hədlərini qüsursuz şəkildə qoruyaraq Allah`dan başqa heç kimdən qorxmadan və çəkinmədən qərarlılıq göstərmək, heç bir mühitdə Quran əxlaqına uyğun olmayan hərəkətlər etməməkdir. Cəsarət sadəcə Allah`dan qorxan, Ona dərindən bağlı olan insanların imanlarından qaynaqlanan təbii haldır.

İnananlar Allah`a olan imanları, Allah qorxuları və axirət istəklərindən qaynaqlanan təbii cəsarəti göstərirlər. Hər hərəkətləri çox səmimi və cəsurdur. Allah rizası üçün Allah`ın əmr etdiyi əxlaqı yaşamaq və digər insanların da bu əxlaqı yaşamalarına şərait yaratmaq üçün cəhd edir, ətraflarında baş verən haqsızlıqlara laqeyd yanaşmır, Qurana uyğun hərəkət edirlər. Pisliklərə qarşı fikri mübarizə aparmağı, doğrunu, gözəli, yaxşını insanlara göstərməyi özlərinə borc bilirlər.

Möminlərin cəsarətinin təməlində Allah sevgisi, Allah qorxusu və Allah`ın rizasını qazanmağı hədəfləyən səmimi cəhd durur, buna görə də gözəl əxlaqı yaşamaqdakı cəsarətləri müəyyən şərtlərə bağlı deyil. Möminlər hər zaman və hər vəziyyətdə Allah`a güvəndən qaynaqlanan cəsarətlərini qoruyurlar.

İnanmayanların göstərdikləri cəsarətdə isə mənəviyyatın yerini sadəcə mənfəət və dünyəvi həvəslər tutur, buna görə də Qurandan uzaq yaşayan insanlar cəsarət anlayışını səhv yerlərdə tətbiq edirlər.

Cəsarət tələb olunan yerlərdə isə səssiz qalırlar. Bu insanların göstərdikləri cəsarət, əsasən, lazımsız, mənasız və axirətləri üçün faydasız olur.

Allah`dan qorxan insanlar cəsarət tələb edən bir hadisə gördükləri zaman bu hadisəni görməməzlikdən gələrək qaçmağı vicdanlarına sığışdırmazlar. Məsələn, bir nəfər günahsız olduğu halda günahlandırılırsa və o da bu insanın günahsız olduğuna şahiddirsə, öz mənfəətlərinə faydalı olmasa da, özünü riskə atsa da, Allah rizası üçün bu insanı müdafiə edir. Bu, həqiqətən, çox gözəl cəsarət nümunəsidir. Möminin göstərdiyi bu cəsarətin qaynağı Allah qorxusudur, çünki Allah Quranda belə əmr edir:

**... Şahidliyi gizlətməyin! Onu gizlədən şəxsin qəlbi günahkardır. Allah etdiyiniz əməlləri biləndir! (Bəqərə surəsi, 283)**

Ayədə bildirildiyi kimi, Allah şahidliyi gizlətməyi haram edir. Mömin Allah`ın əmrlərinə itaət etməkdə zəiflik göstərməkdən və ağır davranmaqdan qorxduğu üçün Allah`ın bildirdiyi hədləri qorumaqda çox cəsurdur.

Quran əxlaqından uzaq cəmiyyətdə isə vicdanının səsini dinləyib haqqına təcavüz edilən birini müdafiə edənləri "Sən onun vəkilisən?", "Sənə qalıb onu müdafiə etmək?" kimi sözlərlə alçaldıb, bu gözəl əxlaqdan uzaqlaşdırmağa çalışırlar. Halbuki, etdiyi təqdirəlayiq hərəkətdir. Bu situasiya ilə qarşılaşan insan da din əxlaqından uzaq biridirsə ətrafındakı insanların reaksiyasından təsirlənər, öz mənfəətlərini itirməkdən çəkinər, ancaq bu insan Allah`a iman edən, Qurana tabe olan insandırsa Allah`ın əmr etdiyi əxlaqı tətbiq etməkdə əsla tərəddüd etməz.

Bu insan vicdanının səsinə qulaq asıb ən çətin anda belə haqqı qorumaqda cəsarətli olar. Pisliklə qarşılaşdığı zaman ayədə əmr edildiyi kimi, yaxşılıqla qarşılıq vermək üçün çalışar, buna görə də Quran

əxlaqını yaşamayan insanlar tərəfindən saflığa görə mühakimə edilib alçaldılar. Ətrafındakı insanlar onun bu hərəkətini yadırğasa belə, o, gözəl əxlaqlı olmağa üstünlük verər. Quranda qınayanın qınamasından qorxmamaq, cəsur və qərarlı olmaq gözəl əxlaq xüsusiyyəti kimi göstərilir:

**Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allah`ı) sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allah`ın lütfüdür, onu istədiyinə verər. Allah (öz lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir! (Maidə surəsi, 54)**

Gündəlik həyatımızdan bir neçə nümunə göstərərək mövzunu daha da aydınlaşdıra bilərik. Bir nəfər yolda kasıb, köməyə ehtiyacı olan biri ilə rastlaşır. Kömək etmək istəyir, lakin yanındakılar: "Fikir vermə", "Sənə qalmayıb ki, kömək etmək" - deyərək kömək etməsinə mane olmağa çalışırlar. O insan burada artıq seçim qarşısında qalır.

Bəzi insanlar dostlarının qarşısında alçalmaqdan çəkinərək, onları itirməkdən qorxaraq gözəl əxlaq göstərməkdən üz döndərir və həmin insana kömək etmirlər. Müsəlman isə qınaqlardan çəkinmədən o insana kömək edir, çünki köməyə möhtac olan o insanı Allah yaradıb xüsusi olaraq qarşısına çıxarmışdır. Bu hadisə ilə onun gözəl əxlaqlı olub-olmadığını yoxlayır. İncə düşüncəli mömin bu hadisəni Allah`ın xüsusilə yaratdığını və özünü imtahan etdiyini dərhal anlayır, Allah`ın rizasına uyğun olanı seçir. Dostlarının lağ etməsi onu gözəl əxlaqdan çəkindirmir. Doğru bildiyini etməkdə cəsarətli olur.

Gözəl əxlaq göstərməkdə qərarlı olan insanın qarşısına bəzən bu cür insanlar çıxa bilir. Quran ayələrini incələdiyimiz zaman bu cür hadisələrin imtahan üçün yaradıldığını çox açıq görürük. Belə ki,

Quranda yaxşıların qarşısında hər zaman pislərin olacağından, bu şəxslərin pisliyi yer üzündə yaymaq istədiklərindən bəhs edilir.

Məqsədləri bu olduğu üçün yaxşılıq edənləri də yollarından döndərmək istəyirlər. Allah bir çox ayə ilə bunu bildirmişdir:

**… Allah`ın ayələrini yalan hesab edib onlardan üz çevirəndən daha zalım kim ola bilər?! Ayələrimizdən üz çevirənləri üz çevirdiklərinə görə ən pis cəza ilə cəzalandıracağıq! (Ənam surəsi, 157)**

**Dini yalan hesab edəni gördünmü? O, elə adamdır ki, yetimi itələyib qovar; və yoxsulu yedirtməyə rəğbətləndirməz. Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər; onlar riyakarlıq edər və zəkat verməyi qadağan edərlər. (Maun surəsi, 1-7)**

Allah Quranda inkar edənlərin yaxşılıqların, xeyirli işlərin qarşısını almaq üçün cəhd edəcəklərinə diqqət çəkir və bunun yaxşılarla pislərin bir-birindən ayrılmasına vəsilə olub inananların xeyrinə nəticələnəcəyini də ayələrdə xəbər verir:

**Küfr edənlər öz mallarını Allah yolundan döndərmək üçün sərf edərlər. Onlar mallarını sərf edəcək, lakin sonra peşman olacaq, axırda da məğlub ediləcəklər. Kafirlər cəhənnəm tərəfə sürüklənəcəklər ki, Allah murdarı pakdan ayırd etsin, sonra murdarları bir-birinin üstünə yığıb hamısını bir yerə toplasın və cəhənnəmə atsın. Bunlar özlərinə zərər eləyənlərdir! (Ənfal surəsi, 36-37)**

Bəzi insanlar pisliyin təsirində qalaraq pislik edirlər. Başqaları yaxşılıq etmək istədikləri zaman söz və hərəkətləri ilə onları incidirlər. Şeytanın təsiri ilə pisliyi gözəl, yaxşılığı çirkin göstərirlər. Zəif iradəli, qorxaq və həssas xarakterli insanlar da ətrafdakı insanların təsirinə

düşərək gözəl əxlaq göstərməkdən uzaqlaşırlar. Pis əxlaqlı şəxslərə çox asanlıqla uyğunlaşa bilirlər.

Ətrafındakılarla uyğunlaşmaq və doğru yolda olmayanların rəğbətini qazanmaq üçün doğru bildiklərindən keçərək pis əxlaqı seçən insan özünə böyük zərər verir. İnsanların qınamasından, onların uzaqlaşmasından çəkinərək səhv yolu seçir, pislərlə ayaqlaşaraq, əslində, özünə zülm edir. Dostlarını itirməmək üçün pis əxlaqa göz yuman və həqiqi dostun sadəcə Allah olduğunu bilməyən bu insanlar, Allah`ın hüzurunda alçaldıqlarının və axirətlərini itirdiklərinin fərqində deyillər.

Halbuki, Allah Özünə tabe olanları və Quranda əmr olunduğu kimi şəfqətli, mərhəmətli, ədalətli, fədakar, təvəkküllü, yaxşılığa dəvət edən, xoş niyyətli, hər şeydə xeyir görən, həlim xasiyyətli olmaqda nə olursa olsun, qərarlı və cəsur davrananları nəinki alçaldıb cəmiyyətdən təcrid edəcək, əksinə, dünyada və axirətdə haqdan üz döndərənlərin hamısına qalib edəcəkdir.

Qurana uyğun olan cəsarət Allah`dan başqa heç nədən və heç kimdən qorxmamağı, Allah`ın rizasına uyğun davranmaqda tərəddüd etməməyi və qərarsızlıq göstərməməyi də tələb edir. İman edənlərin ən vacib xüsusiyyətlərindən biri çətinliklər qarşısında acizlik göstərməmələri, Allah`dan başqa heç kimdən və heç nədən qorxmamalarıdır. Bu da onlara hər cür qorxuya qalib gələ biləcək cəsarəti qazandırır. Onlar Allah`dan başqa güc olmadığını bilirlər. Quranda möminlərin bu nümunəvi əxlaqına bu cür diqqət çəkilir:

**Onlar Allah`ın risalətini təbliğ edir, Ondan qorxur və Allah`dan başqa heç kəsdən qorxmurdular. Allah Özü haqq-hesab çəkməyə kifayətdir. (Əhzab surəsi, 39)**

Pislik etməkdən xoşu gələn, pis işlər görməkdə davam edən və başqalarının da özləri kimi olmasını istəyən insanların əmələ gətir-

dikləri şər qruplaşmalarını dağıtmaq, yer üzündə yaxşılığın hakim olmasına çalışmaq peyğəmbərlər və saleh möminlər qədər cəsur olmağı tələb edir. Bu cəsarət isə səmimi və şirkdən təmizlənmiş imandan qaynaqlanır.

Yaxşılıq edən, insanlara yaxşılığı tövsiyə edən insan ətrafındakı pis adamların diqqətini cəlb edər. Onu yaxşılıqdan uzaqlaşdırmağa çalışarlar. Bu hal bu günə qədər, bəlkə də, min dəfələrlə təcəlli etmiş, tarix boyu yaşamış hər müsəlmanı gözəl əxlaqı yaşamaqdan və başqalarına tövsiyə etməkdən uzaqlaşdırmağa çalışmışlar.

Məsələn, Quran əxlaqı yaşanmayan cəmiyyətdə namaz qılmağa təzə başlayan insana mane olmağa çalışırlar. "Hələ cavansan, gələcəkdə qılarsan", "günahın mənim boynuma", - deyərək ibadətdən uzaqlaşdırmaq istəyirlər. Halbuki, gündə 5 vaxt fərz olan namaz Allah`ın əmridir. İnsanları bu ibadətdən uzaqlaşdırmaqdansa tövsiyə etmək lazımdır. Allah insanları bu gözəl ibadətdən uzaqlaşdırmağa çalışanlarla əlaqədar Quranda bu cür buyurur:

**Gördünmü o kimsəni ki, mane olur, bir bəndəyə namaz qıldığı vaxt? Bir de görək, əgər o doğru yoldadırsa, yaxud qorxmağı əmr edirsə; bir de görək, yalan sayır və üz döndərirsə, məgər bilmir ki, Allah görür?! Yox, yox! Əgər son qoymasa, and olsun ki, Biz onu kəkilindən yapışıb sürükləyəcəyik - özü də yalançı, günahkar kəkilindən! Qoy, o, özünün bütün tərəfdarlarını çağırsın! Biz də zəbaniləri çağıracağıq! Yox, yox! Sən ona uyma! Sən ancaq səcdə et və yaxınlaş! (Ələq surəsi, 9-19)**

Şeytan dünya həyatının həqiqi üzünü görən, Quran əxlaqını yaşayan və axirət üçün çalışan bir nəfərin belə olmasını istəmir. Buna görə də Qurana həssas şəkildə tabe olan insanın üzərinə öz tərəfdarlarını göndərir və onu yolundan çəkindirməyə, qorxutmağa və ona mənfi təsir etməyə çalışır. Şeytan bu fəaliyyətini bilavasitə təlqin və

vəsvəsə yolu ilə apardığı kimi, insanların arasında öz təsirinə saldığı və dost etdiyi adamlar vasitəsi ilə də davam etdirir. Allah şeytanın bu üsulunun iman edənlər üçün təsiri olmadığını bu cür bildirir:

**Sizi yalnız o şeytan öz dostlarından qorxudub çəkindirir. Amma siz onlardan qorxmayın! Əgər möminsinizsə, Məndən qorxun! (Ali-İmran surəsi, 175)**

Bu ayədən əvvəlki ayələrdə isə Allah`dan qorxan insanların dinlərini yaşamalarında cəsur və qərarlı olmalarından, bunun nəticəsində də Allah`ın verdiyi gözəl qarşılıqdan bu cür bəhs edilir:

**O kəslər ki, xalq onlara: "Camaat sizə qarşı (qüvvə) toplamışdır, onlardan qorxun!" - dedikdə, (bu söz) onların imanını daha da artırdı və onlar: "Allah bizə bəs edər. O nə gözəl vəkildir!" – deyə cavab verdilər. Sonra da Allah`ın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allah`ın razılığını qazanmış oldular. Həqiqətən, Allah böyük mərhəmət sahibidir. (Ali-İmran surəsi, 173-174)**

Cəsur olan, vicdanının səsini dinləyən və doğruları görüb heç kimdən çəkinmədən haqq yolda irəliləyən insan Allah`ın rəhmətinə, rizasına, nemətinə və cənnətinə qovuşar. Şeytanın fısıltılarına qulaq asan insan isə onun arxasınca cəhənnəmə qədər gedər və daim orada qalar.

İman edən insanın vəzifəsi Allah`ın əmr etdiyi yaxşılığı, doğru və gözəl olanı insanlara tövsiyə etməkdir. Möminin əsas vəzifəsi budur, ancaq bu da unudulmamalıdır ki, insan bu yolda bir çox çətinliklərlə, daha doğrusu imtahanlarla qarşılaşa bilər. Çünki bu, Allah`ın Quranda xəbər verdiyi vəddir:

**Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onları fəlakət**

**və sıxıntı elə bürümüş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və iman gətirənlər birlikdə: "Allah`ın köməyi nə vaxt gələcək?" – demişdilər. Bilin ki, Allah`ın köməyi yaxındır! (Bəqərə surəsi, 214)**

Cənnətə getməyi ümid edən hər mömin bu ayədə Allah`ın vəd etdiyi kimi inananların keçmişdə yaşadıqları çətinliklərlə imtahan olunacaq. Bu zaman insan Allah`a tabe olacaq, Ona güvənəcək, qərarlı və cəsur olub bütün bunların imtahanın bir hissəsi olduğunu biləcəkdir.

İnsanın bu zaman hər hansı bir bəhanə gətirərək dinindən, gözəl əxlaqından uzaqlaşması isə çox çirkin və səmimiyyətsiz hərəkətdir. Əgər insan səmimidirsə, qorxub çəkinəcəyi heç nə yoxdur. Allah onu qoruyacaq, işlərini asanlaşdıracaqdır. Belə ki, Allah ayələrdə hər çətinliklə yanaşı bir asanlığın olduğunu və insanları qaldıra bilməyəcəkləri yüklə yükləməyəcəyini müjdələyir:

**Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (Şərh surəsi, 5-6)**

**İman gətirib yaxşı işlər görənlər isə - Biz heç kəsi qüvvəsi yetdiyindən artıq yükləmərik – cənnətlikdirlər, onlar orada əbədi qalacaqlar! Biz onların ürəklərindəki kin-küdurəti çəkib çıxardarıq. Onların altından çaylar axar. Onlar deyərlər: "Bizi bura gətirib çıxaran Allah`a həmd olsun! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz özümüzə doğru yolu tapa bilməzdik. Həqiqətən, Rəbbimizin peyğəmbərləri haqqı gətirmişdilər!" Onlara: "Etdiyiniz əməllərə görə varisi olduğunuz cənnət budur!" – deyə müraciət ediləcəkdir. (Əraf surəsi, 42-43)**

# QURANA ƏSASLANAN CƏSARƏTLƏ CƏMİYYƏTDƏKİ CƏSARƏT ANLAYIŞININ FƏRQİ

Cəsarət də digər bir çox anlayış kimi din əxlaqından uzaq cəmiyyətdə Qurandakı mənasından fərqli qəbul edilən və yaşanan anlayışlardandır. Şübhəsiz, cəsarətlə əlaqədar hərə bir söz söyləyə bilər, ancaq hər mövzuda olduğu kimi, bu mövzuda da ən doğru məlumat Quranda verilir.

Bütün insanlar müxtəlif zamanlarda cəsarət göstərə bilərlər. Lakin insanların cəsur davrandıqları hallar, bu cür davranmaqdakı məqsədləri və göstərdikləri cəsarətin hədləri Quranda xəbər verilənlərdən çox fərqlidir.

Quran əxlaqını yaşamayan, Allah`ın tövsiyə etdiyi cəsarət haqqında məlumatı olmayan biri ilə müsəlman olan birinin cəsarət haqqındakı fikirləri bir-birindən fərqlidir. Müsəlman cəsarəti Quranda xəbər verildiyi kimi izah edərkən, Quran əxlaqı və Allah`ın tövsiyə etdiyi cəsarət haqqında məlumatı olmayan birinin düşüncələri təbii ki, fərqli olar. Məsələn, filmlərdə tez-tez rastlaşdığımız kimi şosedə sürətlə hərəkət edən maşınların arasında tərs istiqamətdə hərəkət etmək böyük cəsarət nümunəsidir.

Universitetdə oxuyan tələbələrin cəsarət anlayışları daha fərqlidir. Müəllimlə mübahisə edən tələbə digərlərinə görə daha cəsurdur. Aqressiv, qaydalara riayət etməyən tələbənin də cəsur olduğunu düşünürlər. Məsələn, məktəbə məktəbli geyimi ilə gəlməli olduğu halda

fərqli geyimdə gələn şagird böyük cəsurluq etmiş olur. İmtahanda yoldaşlarından kömək istəmək də bu cür insanlara görə cəsarət örnəklərindəndir.

Cahil cəmiyyətdə iş adamları üçün cəsarət anlayışı ticarətdə özünü riskli hallara salmağı deməkdir. Məsələn, birjada külli miqdarda pul qoymaq bu insanlar üçün böyük cəsarət nümunəsidir. Bundan başqa, yeni iş sahəsinə sərmayə qoymaq da ən cəsur insanların işidir.

Qısaca, din əxlaqı mənimsənməyən cəmiyyətlərdə insanlar cəsarət anlayışını yaşadıqları mühitə uyğun izah edirlər. Bu insanlar Quranı deyil, şəxsi prinsip və vərdişlərini rəhbər etdikləri üçün cəsarətlə əlaqədar düşüncələri də fərqli olur. Məsələn, kasıb şəxslərlə imkanlı şəxslərin cəsarətlə əlaqədar izahları fərqli olur. Evdar qadınla siyasətçi şəxsin də cəsarət anlayışları tamamilə fərqlidir.

Bu kimi nümunələri fərqli cəmiyyətləri misal çəkərək çoxaltmaq olar, ancaq onların hamısının cəsarət dedikdə anladıqları anlayış cəmiyyətin qəbul etdiyi ümumi qaydaları pozaraq fərqli hərəkətlər etməkdir.

Quran əxlaqının hakim olmadığı bu cəmiyyətlərdə cəsarət anlayışının həddi yoxdur. Oğru da özünü cəsur adlandırır, etdiyi hərəkətin cəsarət tələb edən iş olduğunu deyir. Çünki Quranı rəhbər etməyən insanların onlarla, hətta yüzlərlə rəhbəri var. Hərə hadisələri öz dünyagörüşünə görə dəyərləndirir və fərqli fikir irəli sürür. Hamı öz fikrinə üstünlük verdiyi üçün cəmiyyətdə qarışıqlıq olur. Heç kim başqalarının fikrini bəyənmir. Quran əxlaqı yaşanmayan cəmiyyətlərdə hərənin öz fikrinə üstünlük verməsindən, yalnız öz mühakimələrini bəyənməsindən qaynaqlanan qarışıqlıqlar, münaqişələr mütləq baş verir.

Halbuki, Quran rəhbər edilsə, Allah`ın bildirdiyi ən gözəl və ən doğru olan yeganə əxlaq modeli yaşanar. Quranda bəhs edilən həqiqi cəsarət isə yuxarıda saydıqlarımızdan çox fərqlidir. Quranda bəhs

edilən cəsarət Allah`a inamdan qaynaqlanan, həyatın hər anında təvəkkülün nəticəsi olaraq formalaşan sağlam xarakterdir. Bu sağlam xarakterlə əlaqədar ən gözəl nümunələri isə -sonrakı səhifələrdə də bəhs edəcəyimiz kimi- Peyğəmbərimizin (s.ə.v) həyatında və Allah`ın Quranda həyatlarından nümunələr verdiyi digər peyğəmbərlərin həyatlarında görə bilərik. Cəsarətin nə demək olduğunu Qurandan öyrənib anlamaq lazımdır. Quran cəsarətin ağıllı, düşünülmüş addım olduğunu bildirir. Allah insanlara düşünüb anlamalarını tövsiyə etmiş, düşünməyənlər üçün bir ayədə bu cür buyurmuşdur:

**Heç kəs Allah`ın izni olmadan iman gətirə bilməz. Allah anlamayanları əzaba düçar edər. (Yunis surəsi, 100)**

Düşünülmüş cəsarətlə nailiyyət qazanmaq olar. Cəmiyyətdə göstərilən cəsarətdə isə risk vardır. Bu cəmiyyət riskə gedən və dəlicəsinə hərəkət edən insanları təqdir edir. Məsələn, qiymətli əşyaları çıxarmaq üçün alovların arasından keçib yanan evə girən insan çox cəsur hesab edilir. Halbuki, bu insan çox təhlükəli və ağılsız iş görür. Onu təqdir etmək əvəzinə mane olub, xəbərdar etmək lazımdır. Belə ki, insan həyatı dünya malından daha əhəmiyyətlidir.

Cəsarətin Quran əxlaqına uyğun olaraq yaşanmasındakı ən əhəmiyyətli ünsür ağıldır. Ağıllı olmaq isə Allah`dan qorxmaqla mümkündür. Allah Özündən lazımi şəkildə qorxanlara doğrunu yanlışdan ayırmaq bacarığı verir. Allah qorxusu ilə artan bu bacarıq nəticəsində hər zaman doğrunu yanlışdan fərqləndirə bilərik. Bu həqiqət Quranda bu cür xəbər verilir:

**Ey iman gətirənlər! Əgər Allah`dan qorxsanız, O, sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

Quranda ağıla çox əhəmiyyət verilir. Möminlər bütün hərəkətlərində olduğu kimi, cəsarət göstərdikləri zaman da ağılla

hərəkət edirlər. Mömінin cəsarəti romantik cəsarət deyil. Bəzən çox böyük risklər də edə bilər, amma anidən hisslərinə qapılaraq düşüncəsizliklə risk etməz. Hər hərəkətində olduğu kimi, bu hərəkətində də mütləq ağıl var. Kor-koranə, ağılsız cəsarət göstərməz.

Allah qorxusu bütün mövzularda olduğu kimi, bu mövzuda da çox əhəmiyyətli meyardır. Allah qorxusu olmayan biri çox asanlıqla insanlara zərər verər, öz mənfəəti üçün başqalarının haqlarına təcavüz edə bilər. Bu insanların cəsarət anlayışı ilə Quranda xəbər verilən cəsarət anlayışı bir-birinə tamamilə ziddir.

Bu düşüncəyə sahib olan insanlar başqalarının haqqını yeyərək mənfəət əldə etməyi və bununla qanunlara qarşı çıxmağı, heç kimə hiss etdirmədən gizli işlər görərək zəngin olmağı cəsarət zənn edərlər. Utanmadan bu cür əxlaqsızlıqlar etməyi, dünyəvi mənfəətlər uğrunda digər insanlara zülm etməkdən çəkinməməyi, heç kimə tabe olmamağı üstünlük sayarlar. Halbuki, Allah yer üzündə münaqişə çıxarmaq, insanlara zülm etmək, insanların haqqına girmək və bu kimi hərəkətlərin hamısından insanları çəkindirmiş və onlara bu hərəkətlərin hesabını axirətdə verə bilməyəcəklərini xəbər vermişdir. Cəsarət gözəl əxlaqla birlikdə həqiqi mənasını qazanır. Dövlətin və qanunların əleyhinə göstərilən cəsarət isə çirkin cəsarətdir. Bu cəsarət nümunəsi gözəl əxlaqa, Allah`ın Quranda xəbər verdiyi müsəlman modelinə uyğun deyil.

Cəsarət Allah`ın rizasını qazanmaq üçün göstərilir. Möminlər Allah rizası üçün canlarından və mallarından keçirlər. Əslində, bu inanan insanların sonradan aldıqları qərar deyil. Onlar bu qərarı iman etdiklərini dedikləri anda vermişlər:

**Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş cənnət müqabilində satın almışdır. Allah`dan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz**

**sövdəyə görə sevinin. Bu, böyük qurtuluşdur! (Tövbə surəsi, 111)**

Əvvəlcədən bu qərarı verdikləri üçün önlərinə çıxan hər fürsətdə verdikləri qərarı tətbiq edirlər, möminlərin tətbiq etdikləri bu cəsarət Allah`ın əmr etdiyi cəsarətdir. Buna görə də möminlər böyük cəsarət tələb edən hərəkətləri olduqca soyuqqanlı, təvəkküllü və qorxmadan edə bilirlər. Çünki mömin Allah`ın razı qalacağı işi yerinə yetirmək lazım olduğu zaman imtina edə bilməyəcəyi və gözə almayacağı heç nə yoxdur.

Onsuz da insana canını və malını verən Allah`dır. Öz diləməsi ilə bunları insanlara verdiyi kimi, istədiyi zaman, istədiyi kimi geri almaq yenə də Allah`a məxsusdur. Bundan başqa heç nəyin təsadüfən meydana gəlmədiyi də unudulmamalıdır. Quran əxlaqını yaşayan, Allah üçün cəsur və qərarlı olan insan qədərində yazılandan başqasını yaşamaz. Bu isə dünyada və axirətdə özü üçün ən xeyirli olandır. İnsan hər hansı bir çətinlik qarşısında cəsarətli davranarsa, qarşılaşacağı nəticə necə olursa olsun özü üçün ən xeyirlisidir. Çünki Allah Quranda inanan qullarının işlərini mütləq xeyirlə nəticələndirəcəyini xəbər vermişdir.

Quranda həqiqi cəsarətin ən gözəl şəkildə izah edilir. Peyğəmbərlərin və möminlərin həyatlarından verilən nümunələr isə Allah`ı razı salmaq üçün göstərilən cəsarətin üstün bir keyfiyyət olduğunu göstərir.

Gördüyümüz kimi, Quranda bəhs edilən cəsarətlə, cəmiyyətdə qəbul edilən cəsarətin ən əhəmiyyətli fərqi məqsəddir. Quranı incələdiyimiz zaman cəsarət anlayışının cəmiyyətdə qəbul edilənlərdən çox fərqli məqsədləri olduğu aydın olur. Quranda bəhs edilən cəsarətin məqsədi insanların təqdirini qazanmaq və nəfsinin istəklərini təmin etmək deyil. Məqsəd sadəcə Allah`ın rizasını qazanmaqdır.

Əlbəttə, bu, cəmiyyətdə tətbiq edilən cəsarətlə Quranda bəhs edilən cəsarət anlayışının arasında böyük fərqlərin yaranmasına səbəb olur. Belə ki, cəmiyyətdə qəbul edilən cəsarət anlayışında əvvəl də qeyd etdiyimiz kimi, dünyəvi hədəflər var. Yəni insan cəsarətli davranarkən axirəti deyil, dünyanı düşünür. Bəlkə də, gözəl və faydalı bir iş görür, məsələn, az qala maşının altında qalan uşağı ölümdən xilas edir, amma buradakı əsas məqsədi öz vicdanını rahatlatmaqdır. Yaxud camaatın gözü önündə haqsızlığa uğrayan birini müdafiə edir. Etdiyi hərəkət gözəldir, lakin məqsədi oradakıların təqdirini qazanmaqdır. Halbuki, bu hərəkət Allah rizası düşünülərək edilsə, Allah qatında dəyərli olar.

Bu həqiqəti bir an belə unutmayan müsəlmanların göstərdikləri cəsarət dünyəvi məqsədlərlə və mənfəətlərlə bağlı olmaz. İnsanlar tərəfindən cəsur kimi tanınmaq, cəsur adlandırılmaq üçün cəhd etməzlər. Allah üçün göstərdikləri cəsarəti Allah`ın bilməsi onlar üçün kifayətdir.

# ŞEYTAN İNSANLARA ÇİRKİN CƏSARƏTİ ƏMR EDİR

Şeytanın məqsədi insanları Allah`ın dinindən uzaq saxlamaq və öz arxasınca cəhənnəmə aparmaqdır. Buna görə də insanları aldatmaq və tələyə salmaq üçün fərqli üsullardan istifadə edir. Bu oyunları ilə insanlardan çoxunu aldadır, onları pis əxlaqa sövq edir. İnsanları haqq dindən uzaqlaşdırmaq, onlara öz azğın sistemini yaşatmaq üçün doğru və yanlış anlayışlarını qarışdırıb, gözəl əxlaqı pis, pis əxlaqı isə gözəl göstərməyə çalışır. Beləliklə, gözəl əxlaqa dair bütün anlayışları insanların səhv qəbul etmələrinə səbəb olur. Şeytanın və ona tabe olanların bu xüsusiyyəti ayələrdə bu cür vurğulanır:

> **Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya, günahkara nazil olarlar. Eşitdikləri sözləri onlara təlqin edərlər. Onların əksəriyyəti yalançıdır! (Şüəra surəsi, 221-223)**

Məsələn, səbir etmək çox gözəl əxlaqi xüsusiyyət olduğu halda, şeytan bu anlayışı insanlara səhv tanıdır. Demək olar ki, insanlar səbrin bu gözəl tərəflərini bilmirlər, əksəriyyəti səbir etməyin çətin, sıxıntılı və əziyyətli olduğunu zənn edirlər. Səbir dedikdə ağıllarına məcburiyyətdən qaynaqlanan, istəmədən nəyəsə "dözmək" feli gəlir. Halbuki, səbir Allah`ın rizası olan bir işdə qərarlı olmaq, imtina etmədən, qorxmadan, əzmlə o işi sonuna qədər davam etməkdir. Məsələn, bütün hadisələr qarşısında gözəl davranmaq, hirslənəcəyi

bir hadisə ilə qarşılaşdığı anda hirsini boğaraq gözəl söz söyləmək və nə olursa olsun bu əxlaqda qərarlı olmaq, zəiflik göstərməmək səbrə gözəl nümunədir.

Səbir, eyni zamanda, Allah`ın vəd etdiyi gözəl nəticəni sevinc və həsrətlə gözləməkdir. Şeytan səbri çətin və sıxıntılı göstərməyə çalışsa belə, əksinə, səbir etmək mömininin şövq, həyəcan və sevincini artırır. Məsələn, bütün möminlər həsrətlə axirəti, cənnətə qovuşmağı arzulayır və bunun üçün səbirlə gözləyirlər. Hər hansısa bir mövzuda Allah üçün səbir edən mömin, Allah`ın bu səbrinin qarşılığını verəcəyini bildiyi üçün sevincli yaşayır.

Mömin pis münasibətlə qarşılaşdığı zaman səbir edir. Yəni hirslənmədən, zəiflik göstərmədən Quranda əmr edilən gözəl davranış və əxlaqı göstərir.

Şeytanın səbirlə yanaşı, insanlara fərqli göstərməyə çalışdığı anlayışlardan biri də cəsarətdir. İnsanlar Allah`ın ayələrinə tabe olmadıqları halda, şeytanın təsirinə düşürlər. Beləliklə, əxlaqi anlayışların mənasını Qurandan deyil, şeytanın təlqinlərindən öyrənirlər. Şeytan isə insanları çirkin cəsarətə yönləndirir. Çirkin cəsarət insanın gözünü qırpmadan, vicdani sıxıntı çəkmədən, sonunu düşünmədən və çəkinmədən pislik etməsi, Allah haqqında bilmədiyi şeylərdən danışması, bütün kainatı yaradan Rəbbimizi və axirət gününü inkar edə bilməsidir. Quranda çirkin cəsarət göstərən insanlardan bu cür bəhs edilir:

**"Rəhman özünə övlad götürmüşdür!" – dedilər. Siz, doğrudan da, olduqca pis bir şey etdiniz! Buna görə az qaldı ki, göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub uçsun! Rəhmana övlad isnad etdiklərinə görə! Halbuki, Rəhmana özünə övlad götürmək yaraşmaz. Çünki göylərdə və yerdə olan bütün məxluqatdan bir eləsi yoxdur ki, Rəhmanın hüzuruna bir qul kimi gəlməsin. And olsun ki, onları hesablamış**

**və təkrar-təkrar saymışdır. Onların hamısı qiyamət günü Onun hüzuruna gələcək. (Məryəm surəsi, 88-95)**

Mömin isə Allah`dan qorxur və pis əxlaq göstərməkdən, Allah`ın sonsuz qüdrətini təqdir edə bilməməkdən çox çəkinir. Allah`ın axirətdə hesab çəkəcəyini, əgər dünyada pis əxlaq göstərsə və Rəbbimizin sonsuz qüdrətini lazımi şəkildə təqdir etməsə, bunun hesabını axirətdə verə bilməyəcəyini düşünür. Allah qorxusu olmayanlar isə şeytanın təsiri ilə pis əxlaq nümunəsi olan çirkin cəsarətdən çəkinmirlər.

Hər gün çirkin cəsarət sahibi olan insanlarla rastlaşa bilərik. Allah qorxusu olmayan və Quran əxlaqına uyğun yaşamayan insanlar, adətən, hörmət, şəfqət, mərhəmət, insaniyyət duyğularından uzaq şəkildə yaşayır və heç çəkinmədən pis əxlaq göstərirlər. Cəmiyyətin böyük əksəriyyətində pis əxlaq nümunələri ilə rastlaşmaq mümkündür. İş adamlarından küçə avaralarına qədər müxtəlif təbəqəyə mənsub olan insanlarda bu əxlaqı görmək olar. Hər biri fərqli cəmiyyətlərin üzvü olsa belə, əgər Allah`dan qorxmurlarsa, demək ki, şeytanın özlərinə əmr etdiyi pis əxlaqa tabedirlər.

Şeytana tabe olan insan isə ağıla gələ biləcək hər cür pisliyi edir. Çünki şeytan ona çirkin cəsarət verir, onu aldadır, pislik etdiyi zaman çox soyuqqanlı olmasını təmin edir. Onsuz da özü də eyni ruhi hala sahibdir. Allah mələklərə səcdə etməsini buyurmuş, o isə qürurlanaraq çirkin cəsarət göstərmiş və itaətsizlik edərək azmışdır. Şeytanın bu ibrətamiz azğınlığından Quranda bu cür bəhs olunur:

**Sizi yaratdıq, sonra sizə surət verdik və mələklərə: "Adəmə səcdə edin!" – dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı. (Allah iblisə): "Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?" – deyə buyurdu. (İblis:) "Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!" – dedi. (Allah) buyurdu:**

**“Oradan aşağı en. Orada sənə təkəbbür göstərmək yaraşmaz. Çıx, çünki sən alçaqlardansan!” (İblis) dedi: “Mənə qiyamətə qədər möhlət ver!” (Allah) buyurdu: “Sən möhlət verilənlərdənsən!” (İblis) dedi: “Sən məni azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara mane olacam! Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm (soxulacağam) və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!” (Allah) buyurdu: “Oradan rüsvay olmuş və kənar edilmiş (qovulmuş) halda çıx. Onlardan hər kim sənə uysa, (cəzasını alacaq). Əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam! (Əraf surəsi, 11-18)**

Qəsdən pis işlər görmək və qarşılığında cəhənnəmə getməyi gözə alaraq çirkin cəsarət göstərmək şeytanın azğınlığının şiddətini göstərir. Bunun üçün şeytan təsiri altına saldığı insanlara da eyni azğınlığı və çirkin cəsarəti aşılamağa çalışır. Allah insanları şeytana tabe olmamaq üçün bir çox ayə ilə xəbərdar etmişdir:

**Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, (bilsin ki,) o, iyrənc və yaramaz işlər görməyi əmr edir. Əgər Allah`ın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah dilədiyini təmizə çıxardır. Allah eşidəndir, biləndir. (Nur surəsi, 21)**

**Ey insanlar! Yer üzündəki qidaların təmiz, halal olanlarını yeyin, Şeytanın izi ilə getməyin! Həqiqətən, o, sizinlə açıq-açığına düşməndir. O, sizə ancaq pis və murdar işlər görməyi və Allah`a qarşı bilmədiklərinizi deməyi əmr edər. (Bəqərə surəsi, 168-169)**

Şeytanın azmasına səbəb olan ən əhəmiyyətli amillərdən biri isə qürurlanmasıdır. Bunun üçün də şeytan insanların da özünə oxşayaraq

qürurlanmalarını təmin etməyə çalışır. Çirkin cəsarət də, əslində, insanın nəfsinə məğlub olmasının nəticəsidir.

Bu qürur insanlar arasında müxtəlif şəkillərdə ortaya çıxa bilər. Şeytanın yolunu izləyən bəzi insanlar eynilə onun kimi Allah`ın varlığını bildikləri halda, din əxlaqından uzaq həyat yaşayırlar. Bəzi insanlar isə Allah`ın yaratdığı milyonlarla iman həqiqətini gördükləri halda, Allah`ın varlığını inkar edirlər. Bəziləri isə inkar etmir, amma həqiqətləri görməməzlikdən gəlirlər. Məsələn, yer üzünün hər kvadrat millimetrinin Allah`ın yaradılış dəlilləri ilə dolu olmasına baxmayaraq, bəzi insanlar çirkin cəsarət göstərərək bütün bunların kor təsadüflər nəticəsində yarandığını iddia edirlər. Bütün müxtəliflikləri, gözəllikləri ilə canlıların, yerin, göyün, dünyanın, Günəş sisteminin, ulduzların, qalaktikaların, qısası, bütün kainatın təsadüfən meydana gəldiyini iddia edirlər. Bunun qeyri-mümkün olduğunu gördükləri və əslində, vicdanən də anladıqları halda, Allah`ın yaradılışdakı ehtişamını rədd edirlər. Bütün bunlar çirkin cəsarətin, vicdansızca inkar etmənin, qürurlanaraq Allah`a tabe olmamağın əlamətləridir. İnkar edənlərə nə qədər iman həqiqəti göstərsəniz də -Allah diləmədikcə- bir nəticə əldə etməniz çox çətindir.

Üstəlik, qürurlanaraq çirkin cəsarət göstərən insanlar öldükdən sonra dirilməyə də şübhə edirlər. Bu şübhələrini açıq-aşkar ifadə etməkdən də çəkinmirlər. Allah Quranda bu insanların ağılsızlığını və şüursuzluğunu bu cür xəbər verir:

**Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə açıq bir düşmən kəsilərək, öz yaradılışını unudub: "Çürümüş sümükləri kim diriltdə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi. De: "Onları ilk dəfə yoxdan yaradan diriltdəcəkdir. O, hər bir məxluqu çox gözəl tanıyandır! O yaradan ki, sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız". Məgər göyləri və yeri yaradan**

**onlar kimisini yaratmağa qadir deyilmi?! Əlbəttə (qadirdir). (Hər şeyi) yaradan, bilən Odur! Bir şeyi (yaratmaq) istədiyi zaman (Allah`ın) buyurduğu ona ancaq: “Ol!” - deməkdir. O da dərhal olar. Hər şeyin hökmü əlində olan (Allah) pakdır, müqəddəsdir. Siz də Onun hüzuruna qaytarılacaqsınız! (Yasin surəsi, 77-83)**

Bu cür insanlar xəbərdar edildikləri halda tabe olmurlar. Özlərinə göstərilən ibrətlik hadisələri görməməzlikdən gəlirlər. Məsələn, pis əxlaqlı, qarışıqlıq salan, gözəl əxlaqlı insanlara zülm etməyə çalışan, hər cür pisliyi edən bu adamlar özlərini yaxşı insan adlandırırlar. Pis əxlaq göstərdikləri, elçilərə üsyan etdikləri üçün cəzalandırılan qövmlərdən bəhs etdikdə yenə ibrət almırlar. Xəbərdar edilib qorxudularaq doğruya dəvət edilsələr belə, bunu rədd edib sonsuz cəhənnəm əzabına razı olurlar. Allah Quranda bu insanların varlığından bu cür bəhs edir:

**İndi soruş: onları yaratmaq çətindir, yoxsa Bizim (başqa) yaratdıqlarımızı? Axı Biz onları yapışqan bir palçıqdan yaratdıq. Bəli, sən onlara təəccüblənirsən, onlar isə istehza edirlər. Onlara öyüd-nəsihət verildikdə düşünüb ibrət almazlar. Bir möcüzə gördükdə isə ona istehza edərlər. Və belə deyərlər: “Bu, ancaq açıq-aşkar bir sehrdir. Məgər biz öldükdən, torpaq və sür-sümük olduqdan sonra dirildiləcəyikmi?! Eləcə də əvvəlki atalarımız?!” De: “Bəli, özü də zəlil olaraq. (Saffat surəsi, 11-18)**

Allah yuxarıdakı ayənin davamında çirkin cəsarət göstərək şeytana tabe olan insanların axirətdəki vəziyyətlərini bu cür xəbər vermişdir:

**O, yalnız dəhşətli bir səsdən ibarətdir. Onlar dərhal baxacaqlar. Və deyəcəklər: “Vay halımıza! Bu, haqq-hesab günüdür!”. “Bu, yalan hesab etdiyiniz ayırd etmə günüdür!”. “Yığın bir yerə zülm edənləri, onların həmtaylarını və ibadət etdiklərini - Allah`dan qeyri! Onlara cəhənnəm yolunu göstərin! Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!” (Mələklər deyəcəklər:) “Sizə nə olub ki, bir-birinizə kömək edə bilmirsiniz?” Bəli, onlar bu gün təslim olmuşlar! (Saffat surəsi, 19-26)**

## Çirkin cəsarət insanı vicdandan da uzaqlaşdırır

Çirkin cəsarət vicdana uyğun olmayan hərəkətdir. Məzlum birinə qışqırmaq, günah işləmək, zülm etmək, insanların haqlarına təcavüz etmək, insanların illərlə əziyyət çəkib qazandıqları malları oğurlamaq, ehtiyacı olan insanlara kömək etməmək bundan irəli gəlir. Allah insanlara vicdanən bunların səhv olduğunu bildirdiyi halda, təkəbbürlü insanlar vicdanlarına qarşı çıxaraq bu əxlaqı mənimsəyirlər. Bu zalım insanların sakit və soyuqqanlı olmalarının səbəbi isə şeytanın onlara təlqin etdiyi arxayınlıq və çirkin cəsarətdən qaynaqlanır.

Bu insanların heç bir hərəkəti Quran əxlaqına uyğun deyil. Özlərinə belə zərərli olan pis hərəkətləri edə biləcək qədər ağılsız cəsarətləri var. Narkotikdən istifadə etmək, pisliyi yaymaq üçün qruplaşmaq, dava salmaq, təxribat törətmək və xaos çıxarmaq çirkin cəsarətə nümunədir. Belə insanlar cahil cəmiyyətdə cəsur, cəsarətli adlanaraq, şöhrət qazanacaqlarını ümid edərək bu cür hərəkətlər etməkdən çəkinmirlər.

Din əxlaqından uzaq yaşayan insanlar arasında bu hərəkətlər “dəli cəsarəti” olaraq adlandırılır. Bu çirkin cəsarət nümunələri ilə gündəlik həyatımızda çox vaxt rastlaşırıq. Belə insanlar imandan qaynaqlanan

sevgi, hörmət, şəfqət, insanlıq, ağıl, etidaldan nəsiblərini almadıqları üçün məntiq və davranış pozuqluqları var.

Şeytanın tərəfdarları çirkin cəsarəti həmişə üstün davranış olaraq göstərir. Onlardan biri çirkin cəsarət göstərdiyi zaman digərləri onu təqdir edir. Məktəbdə müəllimlərə və şagirdlərə qarşı hörmətsizlik edən, onları ələ salan, xoşagəlməz zarafatlar edən, qısası, onlara zərər verən biri çox vaxt dəstəklənir. Onunla eyni əxlaqda olanların hamısı onun çox cəsur olduğunu deyir və onu təqdir edirlər.

Kübar cəmiyyətdə də eyni məntiq qüvvədədir. Din əleyhinə fəlsəfi nitqlər söyləyən, səviyyəsiz və mədəniyyətsiz üslubdan istifadə edənlər, hərəkətlərində həddi aşanlar, insanlara zülm edənlər, lağ edənlər, açıq-aşkar insanlara pislik edənlər haqqında: "Necə də cəsurdur", - deyə düşünülür. Geyimlərində Allah`ın bildirdiyi həddi aşanlar cəsur və comərd kimi tanınır. Halbuki, bunlar nəinki cəsarət, əksinə, çirkin utanmazlıqdır. Belə ki, şeytan öz tərəfdarlarına doğru yoldan uzaqlaşmağı da cəsarət kimi göstərir, onları özü ilə birlikdə əbədi əzaba aparır.

Şeytanın bu cəhdlərindən və yönləndirdiyi çirkin həyatdan təsirlənməyən, onun vəsvəsələrinə aldanmayan insanlar isə ancaq iman edənlərdir. Allah`ın səmimi qulları üzərində şeytanın təsiri olmayacağı, nə etsə belə, onları doğru yoldan ayıra bilməyəcəyi Quranın bir çox ayəsində xəbər verilmişdir:

**Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allah`a sığın. Şübhəsiz ki, Allah eşidəndir, biləndir! Allah`dan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman onlar xatırlayıb düşünərlər və dərhal görən olarlar. (Əraf surəsi, 200-201)**

**Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində şeytanın heç bir hökmü yoxdur! Şeytanın hökmü yalnız ona itaət edib Allah`a şərik qoşanlar üzərindədir! (Nəhl surəsi, 99-100)**

### Şeytan insanları qorxaqlığa yönəldir

İnkara qarşı fikri mücadilə aparmaq, insanlara yaxşılığı, gözəlliyi əmr etmək, pislikdən çəkindirmək, axirət əzabı ilə xəbərdar etmək Allah`ın əmridir. Bu mövzuda zəiflik göstərmək, Allah`ın əmr və tövsiyələrini, gözəl əxlaqı insanlara bildirməkdə lazımi qədər cəsur davranmamaq: “Onsuz da bu işləri görənlər var”, - deyə bu ibadəti başqalarına saxlamaq, hadisələri kənardan izləmək Allah`ın bəyənmədiyi və möminlərə qadağan etdiyi pis hərəkətlərdir.

Çətinliklə qarşılaşdığı, insanların qınağına məruz qaldığı zaman möminin şövqü və qərarlılığı daha da artır. Çünki bu, onun doğru yolda olduğuna işarədir. Allah keçmişdə yaşayan insanların başlarına gələn çətinliklərin səmimi qullarının da başına gələcəyini, onları da bu şəkildə yoxlayacağını vəd etmişdir. Bu da unudulmamalıdır ki, pis əxlaqlı insanlar özləri kimi olanları əsla qınamır, onlara təzyiq etmirlər. Çünki bu cür insanları pis əxlaq göstərməkdə müttəfiq olaraq görürlər. İnkarçılar sadəcə haqq yolda olan, Quran əxlaqını yaşayan, insanları Allah`ın yoluna, rizasını qazanmağa dəvət edən insanlara təzyiq edirlər. İnkarçılar bir nəfərə qarşı bu cür təzyiq edirlərsə, bu, o insanın haqq yolda olduğunu göstərir.

İnsanların çoxu pislərin diqqətini öz üzərinə çəkməkdən çəkinir. Doğru bildiyi yolda mübariz olmağa cəsarət etmir. Allah`dan qorxan, ömrünü Allah`ın rizasını qazanmağa həsr edən və məsuliyyət daşımaqdan çəkinməyən möminlər bu mövzuda vicdanlı davranırlar. İnkarçıların böhtan və təzyiqlərinə məruz qalacaqlarını bildikləri halda, Allah`ın varlığını, birliyini və Onun əmr etdiyi əxlaqı insanlara çatdırır, şövq və qərarlılıqla fikri mübarizələrinə davam edirlər.

Tarix boyu inkarçılara qarşı çıxan bütün möminlərin ən nəzərə çarpan xüsusiyyətlərindən biri gözəl əxlaqı insanlar arasında yaymaq üçün üzərilərinə böyük məsuliyyət götürmələri və cəsarətlə bu məsuliyyəti yerinə yetirmələri olmuşdur. Təhdid edilmələrinə baxmayaraq,

qərarlılıqla gözəl əxlaqı təbliğ edən möminlər inkarçıları çox heyrətləndirirlər. Peyğəmbərləri və onları izləyən möminləri bu qədər qərarlı, cəsur edən isə Allah`a və axirətə olan imanlarıdır. Allah`ın hər an onları gördüyündən, axirətin varlığından və axirətdə dünyada etdiklərinə görə sorğu-sual olunacaqlarından əmindirlər.

Möminlərin bu cəsarətini anlamaq üçün ilk növbədə Quranı və Quran əxlaqını anlamaq lazımdır. İnsan Allah qorxusuna sahib olmalı, Allah`ın ayələrini qavramalı, Allah`ın insanları təşviq etdiyi mövzuların əhəmiyyətini başa düşməlidir. Təbii ki, insan zalımların, pislərin ittifaqını kənardan izləməklə təbliğ vəzifəsini yerinə yetirmiş sayılmaz. Ancaq insanların çoxunun Allah`ın əmr etdiyi yolda olmadığı düşünülsə, bu cəhdin cəsarət tələb etdiyi də aydın olar. Çünki pis insanların işinə mane olmaq onları narahat edəcək, əks reaksiyalarına səbəb olacaq. Bu halda, təzyiq etmək, tələ qurmaq, böhtan atıb qaralamağa çalışmaq, hətta fiziki təzyiqə də cəhd edə bilərlər. Allah yolunda cəsarət göstərənlərin digərlərindən fərqi də məhz bu zaman ortaya çıxır.

İnsanların çoxu dostlarının və yaxınlarının qınağından çəkinərək tək qalmamaq üçün pis əxlaqın yaşanmasına göz yumur. Xəbərdar edib çəkindirmək vəzifəsini yerinə yetirmir. Çoxları vicdanən doğru olanı bildiyinə baxmayaraq, Quran əxlaqı yaşanmayan cəmiyyətdə hakim olan zalım sistemə göz yumur. Şahid olduğu zülmün yaşanmamasını və yer üzündən silinməsini istəyir, amma buna qarşı fikri mücadilə aparmaq üçün cəsarəti yoxdur. Cəsarət olmazsa, şövq və qərarlılıq da olmaz. Şövq və qərarlılığın olmadığı yerdə isə insan qarşılaşdığı pislikləri əngəlləmək üçün düşünməz, yol axtarmaz, çarə tapmaz. Unudulmamalıdır ki, sadəcə zülmdən narahat olmaq, pisliklərə baxıb təəssüflənmək zülmün yer üzündən silinməsinə kifayət deyil. Bunun üçün səmimi cəhd, istək, şövq lazımdır. Bunları yaşamaq üçün isə cəsarət lazımdır.

Əgər heç kim cəsarət göstərib önə çıxmazsa, yer üzündə nizamsızlıq və qarışıqlıq baş alıb gedər, dünyada yaşamaq imkansız olar. Bu cəsarəti göstərməyən, Allah`ın dinini izah etməkdə ağır davranan, Quran əxlaqını təbliğ etməyənlər isə ayələrdə bildirildiyi kimi ziyan içindədir:

**And olsun axşam çağına! Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbirli olmağı məsləhət edənlərdən başqa. (Əsr surəsi, 1-3)**

## Şeytan möminlərə qorxaqlığı təlqin edə bilməz

Əvvəldə də qeyd etdiyimiz kimi, şeytanın iman edənlər üzərində heç bir gücü və təsiri yoxdur. Bu həqiqət bir ayədə bu cür bildirilir:

**Sənə uyan azğınlar istisna olmaqla, bəndələrim üzərində sənin heç bir hökmün olmaz! (Hicr surəsi, 42)**

Şeytanın gücü ancaq ona tabe olan azğınlara çatar, ancaq onları qorxudub öz təsirinə sala bilər:

**O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun! (Ali-İmran surəsi, 175)**

Mömin şeytanın oyunlarına və qurduğu tələlərə ağılla, cəsarətlə qarşılıq verər. Məsələn, şeytan mütləq inananları da zəiflətmək istəyəcək, aralarına düşmənçilik salmağa, onları şövqsüzlüyə, zəifliyə yönəltməyə çalışacaq. **“... Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün (çirkin fikirlər və yaramaz əqidələr) təlqin edirlər...” (Ənam surəsi, 121)** ayəsi ilə xəbər verildiyi kimi, öz tərəfdarlarını möminlərin üstünə göndərəcək. Lakin imanları çox güclü olan və şeytanın oyunlarını Quranın geniş izahları ilə bilən

möminlər bu tələlərdən heç birinə düşməzlər. Şeytanın zəif hiylələrini o an başa düşərlər.

Möminlər şeytana və onun tərəfdarlarına qarşı çox cəsurdurlar. Şeytan onlara nə etdirmək istəyirsə, əksini edərək qarşılıq verirlər. Şeytan zəifliyə, şövqsüzlüyə salmaq istəyirsə, onlar daha da böyük şövq və qərarlılıqla dinlərinə bağlanırlar. Buna görə də inkarçıların təzyiqləri onları daha da gücləndirir və şövqləndirir. Möminlər bitib tükənməyən şövqləri ilə şeytanı hüsrana uğradırlar.

# CƏSARƏTİ NECƏ QAZANMAQ OLAR?

Cəsarət cəmiyyətdə təqdir edilən, bəyənilən xüsusiyyətdir. İnsanlar cəsur olmaq, cəmiyyətdə cəsur tanınmaq istəyirlər. Çünki cəsur insanlar həmişə hörmət və təqdir qazanırlar. Amma insanların çoxu cəsur tanınmaq üçün çox cəhd etsələr də, həqiqətən cəsarətli ola bilmirlər. Əlbəttə, cəsur olmaq istədikləri halda, bunu bacarmamaqlarının bir çox səbəbi var.

İnsan necə ki, şəfqətli, mərhəmətli, sadiq, həlim xasiyyətli, itaətkar olmaq üçün həqiqi imana sahib olmalıdırsa, hər an və hər şəraitdə cəsur olmaq üçün də iman etməlidir. Lakin bu, o demək deyil ki, iman etməyən biri heç vaxt cəsarətli ola bilməz. Onun da cəsarət göstərəcəyi hadisələr, vaxtlar olar. Ancaq Allah`a şirk qoşan, Ondan başqa varlıqlara güc verən, hər şeyin Allah`ın hakimiyyətində və nəzarətində olduğunu anlamayan insan bir gün qorxduğu, çəkindiyi, cəsarət göstərə bilmədiyi bir hadisə ilə mütləq qarşılaşar. Bu da o insanın Allah`a imandan qaynaqlanan mütləq cəsarətə sahib olmadığını göstərir.

Həqiqi cəsarətə sahib olmaq üçün iman etmək lazımdır. İman hər şeyin Allah`ın nəzarətində olduğunu, O, istəmədikcə heç nəyin reallaşmayacağını bilmək, Allah`dan razı olmaq və sadəcə Ondan qorxmaqdır.

Bu imana sahib olan insan Allah`a təvəkkül edər, bunun nəticəsində də güclü və cəsarətli olar. Qarşılaşdığı hadisələrə baxmayaraq, hər zaman cəsurdur. Hadisələrin şiddəti cəsarətini itirməsinə səbəb ola bilməz. Hər şeyin Allah`ın nəzarətində olduğunu, Allah istədiyi üçün reallaşdığını və Allah`ın özü üçün hər şeyi xeyirlə yaratdığını bilir. Ölümlə belə qarşılaşsa, son dərəcə təvəkküllüdür. Çünki Allah`a mömin olaraq qovuşacaq.

Hər şeyin Allah`ın nəzarətində olduğunu bilmək, Allah`ın yaratdığı qədərə tam təslim olmaq insana güclü iman və imandan qaynaqlanan güclü xarakter qazandırır. Bunun üçün Allah`a yaxın olmaq, hər işdə xeyir və hikmət görmək, başına gələn hər şeydən razı olmaq, heç bir hadisədə üzülüb ümidsizliyə düşməmək, kainatdakı hər şeyin yaradıcısının Allah olduğunu, O, diləmədikcə bir yarpağın belə düşməyəcəyini, bütün qəlblərə və ruhlara hakim olduğunu, Ondan başqa güc və iradə sahibi olmadığını bilmək lazımdır.

Dünyada meydana gələn hər şeyin Allah`ın izni və diləməsi ilə reallaşdığını bilən və təslim olan insan təbii olaraq cəsur olar. Çünki qorxacağı, narahat olacağı heç nə yoxdur. Hər şeyi Allah yaradır və Öz nəzarətində saxlayır. Allah`a yaxın olan, Onu dost və vəli etmiş insanın çəkinəcəyi, qorxacağı heç nə yoxdur, çünki Allah iman edənlərin qoruyucusudur. Allah möminlərin qorxacaqları heç nəyin olmadığını ayələrdə bu cür xəbər verir:

**Xeyr! Kim yaxşı işlər görüb Allah`a təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 112)**

**Ey Adəm oğulları! Sizə aranızdan elçilər gəlib ayələrimi bəyan edərkən (Məndən) qorxub öz (əməllərini) islah edən şəxslərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. (Əraf surəsi, 35)**

Allah`ın bu vədindən xəbərdar olan möminlər qarşılaşdıqları bütün təzyiq və çətinliklərə baxmayaraq, qərarlılıqla Allah`ın əmr etdiyi əxlaqı insanlara tövsiyə edirlər. Təzyiq onların şövqünü əsla azaltmır. Bu, bilavasitə onların sahib olduqları imanla əlaqədardır. İman etməyən insan böhtan və təzyiqə, haqsız əziyyətlərə məruz qalacağını bilsə, qərarlılıq göstərə bilməz. Buna görə də həqiqi imana sahib olmayan insanlar qarşılaşdıqları ən kiçik çətinlikdə belə bütün qərarlılıqlarını itirir, inanclarından, prinsip və mühakimələrindən imtina edirlər.

Müsəlmanların səmimiyyəti  çətinliklər qarşısında göstərdikləri qərarlılıqdan bilinir. Səmimi imana sahib olmayan insanlar peyğəmbərlərin və saleh möminlərin qarşılaşdıqları çətinliklərə bənzər hadisələrlə qarşılaşacaqlarını bildikləri üçün məsuliyyət daşımaq istəmirlər. Çətin anlarda Quran əxlaqını təbliğ etmək, insanlara yaxşılığı əmr edib pislikdən çəkindirmək kimi məsuliyyətli işləri yerinə yetirən insanların hərəkətləri isə nümunəvi və təqdirəlayiqdir. Yer üzündəki insanların böyük əksəriyyəti öz işləri ilə məşğul olduqları halda, inkar edənlərlə Allah yolunda fikri mübarizə aparmaq və bu yolda çətinliklərə səbir etmək çox üstün davranışdır.

Bütün bunlar möminlər üçün çətinlik deyil, əksinə, böyük zövqdür. Çünki əvvəl də bildirdiyimiz kimi, bu imtahanlar peyğəmbərlərin də başına gəlmişdir. Bir çox peyğəmbərə böhtan atılmış, əziyyət verilmiş, yaralanmış və hətta şəhid edilmişdir. Sadəcə Allah`ın varlığını və birliyini izah etdikləri üçün pis əxlaqlı insanların reaksiyaları ilə qarşılaşmış, ancaq sonda mütləq Allah`ın gözəl vədləri yerinə yetmiş, onlar istəməsələr də, Allah`ın əmr etdiyi gözəl əxlaq insanlar arasında yayılmışdır.

Quranda xəbər verilən həqiqi cəsarəti qazanmağın ən əhəmiyyətli yollarından biri də hər zaman ölümü və hesab gününü düşünməkdir. Allah`dan qorxan insan dünya həyatının bir gün bitəcəyini, öldükdən

sonra dünyadakı əməllərinin hesabını verəcəyini bilir. Cəhənnəmə getməmək üçün Qurana haqqı ilə tabe olmalı, zəiflik, qorxaqlıq, utancaqlıq göstərməməli olduğunun fərqindədir.

Buna görə də Allah`ın əmrlərini və tövsiyələrini yerinə yetirməkdə bir an belə gecikmək istəməz. Çünki nə zaman öləcəyini bilmir. Allah`ın əmr etdiyi əxlaqda ən üstün dərəcəyə çatmaq üçün cəhd edir. İnananların çox cəsur olmalarının, Allah`ın əmrlərini tətbiq etməkdə zəiflik göstərməmələrinin və son dərəcə qərarlı olmalarının əsas səbəblərindən biri də budur. Zəiflik göstərdikləri, lazımi şəkildə qərarlılıq göstərmədikləri təqdirdə, bunun hesabını axirətdə verə bilməyəcəklərini bilirlər. Allah`ın əmr və qadağalarını görməməzlikdən gəlməyin qarşılığını öldükdən sonra alacaqlarının fərqindədirlər. Allah möminləri ayələrdə bu cür tanıdır:

**O kəslər ki, Allah`a verdikləri vədi yerinə yetirir və əhdi pozmurlar. O kəslər ki, Allah`ın birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir, Rəbbindən və pis haqq-hesabdan qorxurlar. Və o kəslər ki, Rəbbinin razılığını qazanmaq üçün səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir, pisliyin qarşısını yaxşılıq etməklə alırlar – məhz onları axirət yurdu gözləyir. (Rəd surəsi, 20-22)**

Allah iman edənlərə qorxu və təlaşın qarşısının nə cür alınacağını da Quranda bildirmişdir. Quranın tövsiyələrinə itaət edildiyi zaman qorxu, təlaş və sıxıntının qarşısını asanlıqla almaq olar. Səmimi imana sahib olan hər insan Qurana tam şəkildə tabe olduğu zaman qarşılaşdığı hadisələr qarşısında reaksiyaları da dəyişər.

# PEYĞƏMBƏRLƏRİN VƏ SƏMİMİ MÖMİNLƏRİN CƏSARƏTİNDƏN NÜMUNƏLƏR

Möminlər iman etdikləri üçün başqalarının çəkinib tərəddüd etdikləri hadisələrdə çox şövqlə, cəsur davranırlar. Məsələn, inkarçıların tələ qurduqları, fiziki təzyiq göstərdikləri zamanlarda belə, son dərəcə qərarlı, cəsur, mərd və güclü xarakterləri ilə nəzərə çarpan möminlər doğru yolda olduqlarından əmin olduqları üçün inkarçıların istədikləri kimi hərəkət etmir, Quran əxlaqını yaşamaqdan və imanlarından güzəştə getmirlər.

İnkarçılar möminlərin peşman olmalarını və bir daha gözəl əxlaqı təbliğ etməmələrini istəyirlər. Quranda inkarçıların tarixin hər dövründə bu cür davrandığı xəbər verilir.

Möminlər də inkarçıların hazırladığı tələlərdən xəbərdardırlar. Belə ki, Allah Öz qatından göndərdiyi Quran ilə bunu onlara xəbər vermişdir. Bu tələlər möminlərə maddi və mənəvi zərər vermək üçündür. Lakin buna baxmayaraq, möminlər Allah`ın əmrinə uyğun olaraq inkarçılara qarşı çətin və şərəfli mübarizələrini davam etdirir, cəsarətlə onlara qarşı fikri mücadilə aparırlar. Bu, Allah`ın əmridir:

**Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, (bilsin ki) Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allah`ı) sevərlər. Onlar möminlərə qarşı mülayim,**

**kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allah`ın lütfüdür, onu istədiyinə verər. Allah (öz lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir! (Maidə surəsi, 54)**

Peyğəmbərimizin (s.ə.v) zamanında möminlərlə inkarçılar arasında müharibələr baş vermişdir. İnkarçılar müharibə zamanı ruhdan düşmüş, tamamilə mənəvi sarsıntıya uğramışdır. Peyğəmbərimiz (s.ə.v) və səhabələr özlərindən sonra gələn bütün müsəlmanlara nümunə olacaq güclü cəsarət göstərmişlər. Bəzi müsəlmanlar müharibədə mallarını, bədən üzvlərini, qollarını, ayaqlarını itirmiş, bəzilərinin yaxınları şəhid olmuş, amma cəsarətlərini itirməmişlər. Allah Quranda keçmişdə yaşayan müsəlmanların çox mərd olduqlarına, başlarına bir müsibət gəldikdə: **"Biz, Allah`a məxsusuq və Ona da qayıdacağıq!"** (Bəqərə surəsi, 156) - dediklərinə diqqət çəkir. Onların bu cəsarətləri Allah`a, Peyğəmbərimizə (s.ə.v) və Qurana nə qədər bağlı olduqlarını göstərir. Münafiqlər havanın isti olduğunu bəhanə edərək müharibədən qaçarkən, möminlər mallarını və canlarını ortaya qoyaraq mübarizə aparmışlar.

Peyğəmbərimizə (s.ə.v) müharibə əmri olan ayələr endirildiyi zaman münafiqlər özlərini büruzə vermişlər. Müharibə əmri gəldikdə özünü müsəlman olaraq tanıdan bir çox insanın qəlbindəki xəstəlik üzə çıxmışdır. Allah bu insanların vəziyyətini aşağıdakı ayə ilə xəbər vermişdir:

**Möminlər: "Kaş (cihad barəsində) bir surə nazil olaydı!" – deyirdilər. Elə ki möhkəm bir surə nazil olub orada döyüş (cihad əmri) bildirildi, qəlblərində mərəz olanların sənə ölüm qorxusundan bayılmış kimsənin baxışı ilə baxdıqlarını gördün!… (Muhəmməd surəsi, 20)**

Bu ayədən də məlum olduğu kimi münafiqlərin ən nəzərə çarpan

xüsusiyyətlərindən biri qorxaq olmalarıdır. Bir başqa ayədə Allah bu cür buyurur:

**Sən onları gördükdə cüssələri xoşuna gəlir, danışanda sözlərinə qulaq asırsan. Onlar sanki söykədilmiş dirəklərdir. Onlar hər bir qışqırığın öz əleyhlərinə olduğunu zənn edirlər. Onlar düşməndirlər, sən onlardan həzər et! Allah onları öldürsün, necə də haqdan döndərilirlər! (Münafiqun surəsi, 4)**

Müharibə əmri gəlməzdən əvvəl Peyğəmbərimizə (s.ə.v) müsəlman olduqlarını deyən, müharibə olduqda mütləq müharibəyə qatılacaqlarına dair söz verən münafiqlər müharibə əmri gəldiyi zaman özlərini elə aparmışlar ki, sanki müharibəyə getmək istəyənlər bunlar deyilmiş. Halbuki, vədlərini yerinə yetirsəydilər, daha gözəl olardı. Allah bununla əlaqədar olaraq bu cür buyurur:

**… Amma onlara daha çox yaraşardı - İtaət etmək və gözəl bir söz demək. İş qətiləşdiyi zaman Allah`a sadiq olsaydılar, sözsüz ki, onlar üçün daha yaxşı olardı! (Muhəmməd surəsi, 20)**

Allah`a və axirətə tam şəkildə iman etmədikləri üçün müharibəyə getməkdən qorxmuş, möminlərin göstərdikləri cəsarəti göstərməmişlər. Halbuki, səmimi möminlər bu ayələri eşitdikləri zaman şövqləri daha da artmışdır. Allah bir ayədə möminlərin qərarlılığını vurğulayarkən: **"… Onlar (əhdlərini) əsla dəyişdirməyiblər" (Əhzab surəsi, 23)** - deyə buyurur. Həqiqi imana sahib olmayanlar isə bu cür çətin imtahanlarda özlərini ələ vermişlər. Çünki cəsarət təqlid edilməyən mömin xüsusiyyətidir. Allah insanlar üçün bir çox imtahan mühiti yaratmış, bu imtahanlarda kimin doğru, kimin yalan danışdığını aşkar etmişdir.

Allah Quranda möminlərin gözəl əxlaqından, Özünə olan bağlılıqlarından davamlı bəhs edir, onların cəsarətlərini bir çox ayədə nü-

munə göstərir. Peyğəmbərimizin (s.ə.v) dövründə yaşanan bu nümunələrdən biri belədir:

**Möminlər ordu hissələrini gördükdə dedilər: "Bu, Allah`ın və Peyğəmbərinin bizə olan vədidir. Allah və Peyğəmbəri düz buyurmuşlar!" Bu, onların yalnız imanını və itaətini artırdı. (Əhzab surəsi, 22)**

Yuxarıdakı ayədən də məlum olduğu kimi, möminlər sadəcə Allah`a güvənib sığınan insanlardır. Allah`a tam təslimiyyətlə təvəkkül etmişlər. Düşmənlərinin onlara qarşı toplanmasından məyus olmurlar. Çünki düşmənlərini də, qarşılaşdıqları çətinlikləri də yaradan Allah`dır. Allah`ın gücünün hər şeyi əhatə etdiyini, düşmənlərin də müstəqil gücə sahib olmadığını bilirlər. Buna görə də ayədə xəbər verilən hadisələrlə rastlaşdıqları zaman hər şeyin yaradıcısı olan Rəbbimizə təvəkkül edirlər. Əleyhlərində görünən hadisələri xeyirə yozmaları, hər hadisədə Allah`a yönəlmələri və heç vaxt keflərini pozmamaqları inkar edənlərin qorxmasına səbəb olur.

Quranda mömin xüsusiyyəti olaraq göstərilən cəsarətin ən çox təcəlli etdiyi insanlar isə, heç şübhəsiz, peyğəmbərlər olmuşdur. Quranda peyğəmbərlərin və təqvalı möminlərin yaşadıqları hadisələrdəki cəsarət nümunələrindən bəziləri bunlardır:

## Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)

Peyğəmbərimiz (s.ə.v) Allah`ın Quranı vəhy etdiyi və göndərdiyi sonuncu peyğəmbərdir. Sahib olduğu gözəl əxlaq, Allah`a və Allah`ın dininə olan bağlılığı bir çox Quran ayəsində bütün müsəlmanlara nümunə göstərilmişdir. Din düşmənlərinin qarşı çıxdığı, təzyiq göstərməyə çalışdığı Peyğəmbərimiz (s.ə.v) düşmənlərindən qorunmaq üçün dostu ilə hicrət etmiş və yolda bir mağaraya sığınmışdır. Mağaradakı söhbətləri, dostuna söylədikləri Allah`a olan güvənini

və bundan qaynaqlanan cəsarətini çox gözəl vurğulayır:

**Əgər siz ona (Peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu (Məkkədən) iki nəfərdən biri olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna: "Qəm yemə, Allah bizimlədir!" –dediyi zaman (göstərmişdi). O vaxt Allah ona bir arxayınlıq nazil etmiş, onu sizin görmədiyiniz əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allah`ın sözü ucadır. Allah yenilməz qüvvət, hikmət sahibidir! (Tövbə surəsi, 40)**

Peyğəmbərimiz yanındakı dostuna Allah`ın onlarla birlikdə olduğunu, buna görə də qəmgin olmamasını xatırladaraq müsəlmanlara nümunə olmuşdur. O dövr inkarçılarla qızğın müharibələr baş vermişdir. Bu cür çətin zamanda Allah`ın dini üçün mübarizə aparan hamı böyük cəsarət nümayiş etdirmişdir. Peyğəmbərimiz (s.ə.v) isə bütün müsəlmanların rəhbəri olaraq ən çox təzyiqlərə məruz qalmış və sahib olduğu cəsarətlə möminlərə nümunə olmuşdur.

## Hz. İbrahim

Hz. İbrahim Allah`ın Quranda bir çox mövzuda nümunə göstərdiyi peyğəmbərdir. Son dərəcə güclü imana sahib olması, Allah`a çox böyük təvəkkülünün olması və cəsarətlə inkarçılara qarşı mübarizə aparması hz. İbrahimin əhəmiyyətli xüsusiyyətlərindəndir. Allah bir ayəsində hz. İbrahimin özünün bir ümmət (Nəhl surəsi, 120) olduğundan bəhs etmişdir. Bu, bütün müsəlmanlara nümunədir. Hər müsəlman hz. İbrahimi özünə nümunə götürərək öz-özlüyündə ümmət ola bilməli, yəni tək qalsa belə, Quranı yaşayan, həmçinin insanlara da yaşadan iman, cəsarət və qərarlılığa sahib olmalıdır.

Hz. İbrahimin Allah qorxusundan qaynaqlanan güclü ağılla

birləşən cəsarəti bir çox ayədə nümunə verilmişdir. Quranda keçən bir qissədə İbrahim Peyğəmbərin bütlərə sitayiş edən inkarçılara qarşı göstərdiyi cəsarətdən belə bəhs edilir:

**Həqiqətən, İbrahim də onun yolu ilə gedənlərdən idi. O zaman o öz Rəbbinin hüzuruna tərtəmiz bir qəlblə gəlmişdi. Həmin vaxt o, atasına və tayfasına belə demişdi: "Siz nəyə ibadət edirsiniz? Allah`ı qoyub yalançı tanrılarımı istəyirsiniz? Aləmlərin Rəbbi barəsində zənniniz nədir?" (İbrahim) ulduzlara bir nəzər saldı. Və dedi: "Mən xəstəyəm!" Ondan üz çevirib getdilər. (İbrahim) xəlvətcə onların tanrılarının yanına gedib dedi: "Məgər yeməyəcəksiniz? Sizə nə olub ki, danışmırsınız?" Sonra bütlərin üstünə yüyürüb sağ əli ilə onlara möhkəm bir zərbə endirdi. (Saffat surəsi, 83-93)**

Ayələrdə gördüyümüz kimi, hz. İbrahim tək olmasına baxmayaraq, bütün qövmə qarşı çıxmış və bütlərin ilah olmadığını, əksinə, insanların taxtadan yonub hazırladığı əşyalar olduğunu çox ağıllı şəkildə izah etmişdir. İnkarçılar bu zamana kimi bütlərə qarşı çıxan heç kimlə rastlaşmadıqları üçün çox qəzəblənmiş, onu cəzalandırmaq istəmişdir:

**(Bundan xəbər tutan tayfası) yüyürə-yüyürə onun yanına gəldi. (İbrahim onlara) dedi: "Siz özünüz yonub düzəltdiyiniz şeylərəmi ibadət edirsiniz? Halbuki, sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!" Onlar dedilər: "Bunun (İbrahim) üçün bir bina tikin, özünü də oda atın!" Onlar onun üçün belə bir hiylə qurmaq istədilər, Biz isə onları çox səfil bir vəziyyətə saldıq. (İbrahim) dedi: "Mən Rəbbimə doğru gedirəm. O, mənə doğru yolu mütləq göstərəcəkdir!" (Saffat surəsi, 94-99)**

Hz. İbrahim xalqın qəzəbinə və düşmənçiliyinə baxmayaraq,

Allah`ın varlığından və birliyindən bəhs etməyə davam etmiş, öhdəsinə düşən təbliğ vəzifəsini böyük cəsarətlə yerinə yetirmişdir. Bütün varlıqların, şiddətlə özünə qarşı çıxan qövmü də daxil olmaqla, bütün insanların Allah`ın nəzarətində olduğunu bilərək Rəbbimizə güvənmiş və gözəl əxlaq nümayiş etdirmişdir. Qövmün öndərləri bütün bunlardan narahat olmuş, onu oda atmaq istəmişlər. Ancaq Allah möcüzə yaradaraq onu oddan qorumuşdur. Bu, Allah`ın Öz yolunda qorxmadan mübarizə aparan qullarına etdiyi kömək vədinin sübutudur.

Hz. İbrahimin Allah`a olan bağlılığı və göstərdiyi cəsarət başqa ayələrdə də bu cür təsvir edilmişdir:

> **Tayfası onunla (İbrahimlə) mübahisəyə girişdi. (İbrahim) dedi: "Allah məni doğru yola saldığı halda, siz Onun barəsində mənimlə mübahisə edirsiniz? Rəbbimin istədiyi hər hansı bir şey istisna olmaqla, mən sizin Ona şərik qoşduğunuz bütlərdən qorxmuram. Rəbbim hər şeyi elmlə ehtiva etmişdir. Məgər düşünüb ibrət almırsınız? Allah`ın sizə heç bir dəlil endirmədiyi bütləri Ona şərik qoşmaqdan qorxmadığınız halda, mən niyə sizin qoşduğunuz şəriklərdən qorxmalıyam? Əgər bilirsinizsə, bu iki dəstədən hansı əmin olmağa daha layiqdir? İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır! (Ənam surəsi, 80-82)**

## Hz. Musa

Hz. Musanın həyatına da Quranda geniş şəkildə yer verilmişdir. Onun inkar edən zalım qövmə qarşı göstərdiyi cəsarəti və səbri də müsəlmanlar üçün çox gözəl nümunədir. Misirin hakimi firon din əxlaqından uzaq, təzyiq dolu sistemi ilə hamını özünə tabe etmiş,

qəddar üsulları ilə hər tərəfə qorxu salmışdır. Ayələrdən də gördüyümüz kimi, firon o dövrdə özünə itaət etməyənlərə işgəncə etmiş, qollarını və ayaqlarını çarpaz şəkildə kəsdirmişdir.

Allah bu cür mühitdə hz. Musanı uşaq vaxtlarında sarayına gətirib böyüdən firon və ətrafındakıları din əxlaqına dəvət etməklə vəzifələndirmişdir. Gözəl əxlaqdan uzaq, insanlara etdiyi zülmlərlə tanınan firona qarşı mübarizə aparmaq, şübhəsiz, güclü iman və cəsarət tələb edir. Hz. Musa da Allah`ın verdiyi iman və qərarlılıqla firona xəbərdarlıq etmiş, məsləhət vermişdir. Firon öz sarayında böyüyən hz. Musanın Allah`a iman edərək onun batil sistemindən üz çevirməsinə çox qəzəblənmişdir. Fironun bu qəzəbi Quranda bu cür xəbər verilir:

> **(Firon) dedi: "Biz səni körpə uşaq ikən yanımıza alıb böyütmədikmi? Sən illərcə yanımızda qalmadınmı? Axırda elədiyini də elədin. Sən nankorun birisən!" (Şüəra surəsi, 18-19)**

Sonra firon hz. Musanı sorğu-suala tutur. Düşünür ki, əgər mübahisə zamanı qalib gəlsə, artıq mövzu bağlanacaq. Tanıdıqlarını ətrafına toplayaraq hz. Musanı gözdən salmağa çalışır. Bunun da faydasız olduğunu gördüyü zaman onu həbsə atmaqla təhdid edir. Hz. Musa Allah`ın varlığını qətiyyətlə, fasiləsiz olaraq onlara təbliğ edir.

Hz. Musa möcüzə göstərdikdə firon vəziyyətin ciddi olduğunu başa düşür. Lakin bu dəfə də hz. Musanın sehrbazlıq etdiyini düşünür. Qürurundan hadisənin möhtəşəmliyini görə bilmir. Ətrafındakı insanlarla birləşib hz. Musaya tələ qurmağa çalışır.

Hz. Musa fironun zalım və qəddar hökmdar olduğunu bildiyinə baxmayaraq, zəiflik göstərmədən Allah`ın əmrini yerinə yetirmişdir. Bütün təhlükələri nəzərə alaraq fironun qarşısına çıxmış, onu batil dinini tərk edərək Allah`a iman etməyə dəvət etmişdir. Hz. Musa fironun ölüm hökmü verəcəyini bildiyi halda, heç bir tərəddüd etmədən

ona Allah`ın əmrini təbliğ etmişdir. Fironun etdiyi təhdidlər hz. Musanı yolundan döndərməmişdir:

**(Firon:) "Əgər məndən başqa tanrı qəbul etsən, səni mütləq dustaq edəcəyəm!" – dedi. (Musa) dedi: "Əgər sənə açıq-aşkar bir şey gətirsəm necə?" (Şüəra surəsi, 29-30)**

Firon hz. Musaya qarşı sehrbazları toplamış, hz. Musa onların sehrlərini puç etmişdir. Bunu görən sehrbazlar hz. Musaya iman gətirmişlər. Bu zaman imanın qazandırdığı cəsarət sayəsində işgəncə və ölümü gözə alaraq firondan qorxmadan imanlarını etiraf etmişlər.

Hz. Musanın iman və cəsarətini nümunə götürən sehrbazların bu şərəfli hərəkətlərindən Quranda bu cür bəhs edilir:

**Onlar səcdəyə qapanıb dedilər: "Biz iman gətirdik aləmlərin Rəbbinə - Musanın və Harunun Rəbbinə!" Firon dedi: "Mən sizə izin vermədən əvvəl siz ona iman gətirdiniz? Bu, şübhəsiz ki, əhalisini çıxartmaq məqsədilə şəhərdə qurduğunuz bir hiylədir. (Gördüyünüz işlərə görə başınıza nə oyun açacağımı) biləcəksiniz! Əl-ayağınızı çarpaz kəsdirəcək, sonra isə hamınızı çarmıxa çəkdirəcəyəm!" (Sehrbazlar) belə cavab verdilər: "Şübhə yoxdur ki, biz Rəbbimizin hüzuruna dönəcəyik! Sənin bizdən intiqam almağın isə ancaq Rəbbimizin möcüzələri gələn kimi bizim onlara iman gətirməyimizə görədir. Ey Rəbbimiz! Bizə səbir əta et və bizi müsəlman olaraq öldür!" (Əraf surəsi, 120-126)**

Sehrbazların bu hərəkətlərindən görünür ki, iman edən insan bir anda cəsur, qorxusuz, üstün əxlaqlı ola bilər.

Ayələrdən birində isə hz. Musanın artıq fironun ordusu tərəfindən ələ keçdiklərini düşündükləri anda belə, Allah`a olan güvənini itirməməyindən bəhs olunur. Qövmü qorxaraq onu mübarizədə tək qoymuş, tərk edib getmişdir. Ancaq hz. Musa səmimi iman etmiş bir

nəfərin cəsarətinin belə, inkar edənlərin qarşısını almağa bəs edəcəyini göstərmişdir. Allah hz. Musanı firondan qurtararaq inanan qullarına olan kömək vədini reallaşdırmışdır.

**İki dəstə (tayfa) bir-biri ilə qarşılaşdığı zaman Musanın camaatı dedi: "Artıq yaxalandıq!" (Musa) dedi: "Xeyr, Rəbbim mənimlədir. O, mütləq mənə yol göstərəcəkdir!" Onda Musaya belə vəhy etdik: "Əsanla dənizə vur!" (Musa əsasını dənizə vuran kimi) o, dərhal yarıldı və hər hissə böyük bir dağ kimi oldu. O birilərini də ora yaxınlaşdırdıq. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O birilərini isə suya qərq etdik. Şübhəsiz ki, bunda bir ibrət vardır. Lakin onların əksəriyyəti iman gətirmədi. Həqiqətən, sənin Rəbbin yenilməz qüvvət, mərhəmət sahibidir! (Şüəra surəsi, 61-68)**

### Hz. Süleyman

Hz. Süleyman da gözəl əxlaqın yayılması üçün cəsarət və qərarlılıqla cəhd edən peyğəmbərlərdən biridir. Allah ona böyük hakimiyyət nəsib etmiş, o da insanlar arasında gözəl əxlaqın hakim olması üçün var gücü ilə çalışmış, bu məqsədlə, bənzərsiz üsullardan istifadə etmişdir. Bir çox qövm onun bu üstün vəsflərinə, cəsarətinə, əzm və qərarlılığına heyran qalmışdır. Böyük ordulara sahib olan Səba hökmdarı və qövmünü imana dəvət etmək üçün çox təsirli üsullardan istifadə edərək onlara xəbər yollamışdır:

**(Səba hökmdarı Bəlqis Süleymanın məktubunu alıb oxuyandan sonra) dedi: "Ey əyanlar! Mənə çox hörmətli bir məktub göndərildi. O məktub Süleymandandır və o "Bismillah"la başlanır. (Məzmunu belədir:) "Mənə qarşı təkəbbür göstərməyin və yanıma müti olaraq gəlin!" (Bəlqis) dedi: "Ey əyanlar! Bu iş barəsində mənə rəyinizi bildirin. Mən sizinlə**

**məsləhətləşməmiş heç bir iş görən deyiləm!" Onlar dedilər: "Biz böyük bir qüvvət və qüdrət sahibiyik. Hökm sənindir. Nə əmr edəcəyinə özün bax!" (Bəlqis) dedi: "Hökmdarlar bir ölkəyə girdikləri zaman onu xarabazara çevirər, xalqının böyüklərini də zəlil edərlər. Onlar məhz belə hərəkət edərlər. Mən onlara bir hədiyyə göndərəcəyəm; görüm, elçilər nə ilə qayıdacaqlar!" (Elçibaşı Bəlqisin göndərdiyi hədiyyə ilə) Süleymanın yanına gəldikdə o dedi: "Siz mənə mal-dövlətləmi yardım edirsiniz? Allah`ın mənə verdiyi sizə verdiyindən daha yaxşıdır. Amma siz öz hədiyyələrinizlə sevinirsiniz. Durma, onların yanına qayıt! And olsun ki, gücləri çatmayacaq bir ordu ilə üstlərinə gedib onları öz yurdundan zəlil və xar vəziyyətdə çıxardarıq!" (Nəml surəsi, 29-37)**

Hz. Süleymanın bu cür qərarlı və cəsur olması Allah`ın rizasını axtarması və dünyəvi heç nəyə tamahının olmaması Səba hökmdarına dərindən təsir etmiş və imanına vəsilə olmuşdur:

**... (Bəlqis) dedi: "Ey Rəbbim! Mən özümə zülm etmişdim. Mən artıq Süleymanla aləmlərin Rəbbi olan Allah`a təslim oldum!" (Nəml surəsi, 44)**

## Hz. Nuh

Hz. Nuh da söz eşitməyən qövmünə Allah`ın dinini qərarlılıqla təbliğ edən peyğəmbərlərdən biridir. Uzun müddət qövmünü doğru yola dəvət edən hz. Nuh müxtəlif üsul və taktikalardan istifadə etmişdir. Ancaq qövmü onu anlamadıqları üçün doğru sözə qulaq asmağa belə dözməmişlər. Bütün peyğəmbərlər kimi hz. Nuhu da təhdid etmişlər. Hz. Nuh bütün bunlara baxmayaraq, səbir və qərarlılıqla Allah`ın varlığı və birliyindən, axirətdən bəhs etmiş, lakin qövmündən

iman edənlərin sayı çox az olmuşdur. Hz. Nuhun mübarizəsi ayələrdə bu cür xəbər verilir:

**O dedi: "Ey Rəbbim! Mən qövmümü gecə-gündüz dəvət etdim! Lakin dəvətim onların qaçmalarını daha da artırmaqdan başqa bir şeyə yaramadı. Sənin onları bağışlamağın üçün mən nə zaman onları dəvət etdimsə, onlar barmaqlarını qulaqlarına tıxadılar, libaslarına büründülər, israr edib durdular və təkəbbür göstərdilər. Sonra mən onları uca səslə dəvət etdim. Daha sonra onlara aşkar söylədim və gizli bildirdim". (Nuh surəsi, 5-9)**

Hz. Nuh da digər peyğəmbərlər kimi inkarçıların təhqir, təhdid və hücumlarına məruz qalmışdır.

**Onlar: "Sənə ən rəzil adamlar tabe olmuşkən, biz sənə imanmı gətirəcəyik?" – dedilər. (Şüəra surəsi, 111)**

**Onlar dedilər: "Ey Nuh! Əgər əl çəkməsən, mütləq daşqalaq ediləcəksən!" (Şüəra surəsi, 116)**

Lakin zəiflik göstərmədən, cəsarət və qərarlılıqla Allah`ın əmrini qövmünə təbliğ etmişdir. Belə ki, qövmünün içində qaldığı müddət ərzində bu gözəl və üstün əxlaqı üzərində əks etdirmişdir.

Hz. Nuhda gördüyümüz əxlaq qınayanın qınamasından qorxmayan, əksinə, yalnızca Allah`ın rizasını itirməkdən qorxan və Ona tam təslimiyyətlə güvənən mömin əxlaqıdır. Nuh Peyğəmbər bu gözəl əxlaqı ilə özündən sonra yaşayan bütün müsəlmanlara nümunə olmuşdur.

Hz. Nuh, qövmünün istehzalarını, azğınlıqlarını gözə alaraq sadəcə Rəbbimizin əmrlərini yerinə yetirmiş və Allah`ın kömək etmək barədə vədinə qəti şəkildə iman etmişdir:

**"Nəzarətimiz altında və vəhyimiz üzrə gəmini düzəlt, zülm**

**edənlər barəsində mənə müraciət etmə. Çünki onlar suda boğulacaqlar!" (Nuh) gəmini düzəldir, ümmətinin əyan-əşrafı isə yanından ötüb-keçdikcə onu məsxərəyə qoyurdular. (Nuh) onlara deyirdi: "Əgər siz bizi məsxərəyə qoyursunuzsa, biz də sizi siz bizi məsxərəyə qoyduğunuz kimi məsxərəyə qoyacağıq. Onda rüsvayedici əzabın kimə gələcəyini və kimin əbədi əzaba düçar olacağını biləcəksiniz!" (Hud surəsi, 37-39)**

Allah uzun mücadilədən sonra hz. Nuhun inkar edən qövmünü cəzalandırmış, ona lağ edən, əziyyət verən və təhdid edənləri suda boğmuşdur. Hz. Nuh və onunla birlikdə olan möminləri isə qurtarmışdır. Allah hz. Nuh qissəsi vasitəsilə Öz yolunda cəsarət və qərarlılıqla mücadilə edənlərin etdiklərini qarşılıqsız qoymayacağını, səbir etdikləri üçün dünya və axirətdə mükafatlandıracağını, onlara əziyyət edib mane olmaq istəyənlərdən də mütləq intiqam alacağını xəbər vermişdir.

### Hz. Məryəm

Hz. Məryəm Quranda iffəti, səbri, səmimiyyəti, imanda qərarlılığı və qınayanın qınamasından qorxmaması ilə tanınan mömindir. Allah hz. Məryəmi seçmiş və möcüzəvi şəkildə tərbiyə etmişdir. Hz. Məryəm Allah`a olan yaxınlığı və əxlaqı ilə bütün qadınlardan üstün edilmişdir:

**Belə olduqda, Rəbbi (Məryəmi) yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyaya tapşırdı. Zəkəriyya hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. (Zəkəriyya:) "Ya Məryəm, bunlar sənin üçün haradandır?" - dedikdə, o: "Allah tərəfindəndir!" - deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər! (Ali-İmran surəsi, 37)**

Allah`ın yaratdığı bir möcüzə ilə hz. İsaya hamilə qalan hz. Məryəm Allah`ın əmrlərinə laqeydlik göstərmədən, əmr edilən hər şeyi tam şəkildə yerinə yetirmişdir.

Hz. Məryəm Allah`a son dərəcə bağlı və iffətinə düşkün, mübarək insan idi. Allah hər zaman işlərində ona kömək etmiş və hər işini xeyirlə nəticələndirmişdir. Hz. Məryəm hər işin Allah`ın iradəsində olduğunu heç unutmamış və özünü qövmünün atdığı əsassız böhtanlardan yenə də Allah`ın təmizə çıxaracağını bilmişdir.

Belə ki, Allah da bu işi hz. Məryəm üçün asanlaşdırmış və ona sükut orucu tutmasını vəhy etmişdir. Allah hz. Məryəmə qövmü onunla danışmaq istədikdə susmasını və onu günahlandıranlara hz. İsanı göstərməsini bildirmişdir. Beləliklə, hz. Məryəm Allah`ın köməyi ilə sıxıcı söhbətlərdən uzaq tutulmuşdur. Allah bu şəkildə hz. Məryəmə kömək etmiş və hz. İsa vasitəsilə qövmünə açıqlama gətirmişdir.

Allah`ın yaratdığı bu möcüzə ilə qövmünün hz. Məryəmə qarşı qurduğu tələ də pozulmuşdur. Bu hadisə Quranda bu cür xəbər verilir:

**(Məryəm) dedi: "Mənim necə oğlum ola bilər ki, mənə indiyədək bir insan əli belə toxunmamışdır. Mən zinakar da deyiləm!" (Məryəm surəsi, 20)**

**(Məryəm) uşağı götürüb öz adamlarının yanına gəldi. Onlar dedilər: "Ey Məryəm! Sən çox əcaib bir şeylə gəldin! Ey Harunun bacısı! Atan pis kişi, anan da zinakar deyildi!" (Məryəm onun özü ilə danışın, deyə) ona (uşağa) işarə etdi. Onlar: "Beşikdə olan uşaqla necə danışacaq?" – dedilər. (İsa) dedi: "Mən, həqiqətən, Allah`ın quluyam. O, mənə kitab verdi, özümü də peyğəmbər etdi. (Məryəm surəsi, 27-30)**

Müxtəlif böhtanlara məruz qaldığı halda, şövq və qərarlılığını qoruyan hz. Məryəm cəsarəti və əzmi ilə bütün möminlərə nümunə

olmuşdur. Allah`ın Quranda bütün möminlərə nümunə göstərdiyi üstün məqama yüksəlmişdir:

**Allah iman gətirənlərə isə fironun zövcəsini misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənim üçün Öz dərgahında – cənnətdə bir ev tik. Məni firondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!" – demişdi. Həmçinin namusunu möhkəm qoruyub saxlamış İmranın qızı Məryəmi də misal çəkdi. Biz ona Öz ruhumuzdan üfürdük. Məryəm Rəbbinin sözlərini, kitablarını təsdiq etdi və (Allah`a) itaət edənlərdən oldu. (Təhrim surəsi, 11-12)**

## Hz. Lut, hz. Şüeyb, hz. Hud

Lut, Şüeyb və Hud peyğəmbərin də qövmü azğınlıq etmiş, gözəl əxlaqdan tamamilə uzaqlaşmışlar. Lut qövmünü digər qövmlərdən fərqləndirən xüsusiyyət onların cinsi azğınlıq göstərmələri idi. Qövmünü əxlaqlı olmağa dəvət edən hz. Lutun sözlərini dinləməyən qövmü hz. Lutdan və onun təlqinlərindən azad olmağın yolunu onu qövmündən uzaqlaşdırmaqda görmüşlər. Ancaq azğın qövm yaxınlaşan təhlükədən xəbərdar olmamışdır. Allah hz. Luta mələklər göndərərək qövmün sonunun yaxınlaşdığını müjdələmişdir:

**Lutu da (peyğəmbər göndərdik). Bir zaman o, öz tayfasına demişdi: "Sizdən əvvəl bəşər əhlindən heç kəsin etmədiyi həyasızlığı sizmi edəcəksiniz? Siz qadınları atıb şəhvətlə kişilərin üstünə gəlirsiniz. Siz, doğrudan da, həddi aşmış bir tayfasınız!" (Lut) tayfasının cavabı: "Onları məmləkətinizdən çıxarın, çünki onlar təmiz adamlardır!" – deməkdən başqa bir şey olmamışdı. (Əraf surəsi, 80-82)**

**(Mələklər) dedilər: "Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik.**

**Onlar əsla sənə toxuna bilməzlər. Gecənin bir vaxtında ailənlə birlikdə çıx get. Heç kəs dönüb geri baxmasın. Təkcə övrətin istisnadır. Onlara toxunacaq əzab övrətinə də toxunacaqdır. Onların (ölüm) vaxtı səhərdir. Səhər yaxın deyilmi?" (Hud surəsi, 81)**

Ayələrdən də gördüyümüz kimi, hz. Lut Allah`a güvənərək qövmünü xəbərdar etmiş və bunun qarşılığında sürgünlə təhdid edilmişdir. Lakin bu, hz. Lutu qorxutmamış və Allah`ın köməyinin yaxın olduğunu bilmişdir.

Hz. Şüeyb qövmünün qabaqcılları da qeyri-qanuni işlər görür, zorbalıq edirdilər. Onlar hz. Şüeybə tələ qurur, ona və yanındakılara təzyiq edərək hər cür ədalətsizliyi edirdilər.

Qövmü Şüeyb peyğəmbərin ətrafındakı yaxınlarından qorxduğu üçün çox pis üsullardan istifadə edə bilmirdi. Hz. Şüeyb isə haqq dini təbliğ etməkdə və yaşamaqda laqeydlik göstərməmiş, nümunəvi şəkildə mücadilə aparmışdır. Hər zaman yaxınlarına deyil, Allah`a güvəndiyini, qorxacaqlarsa, Allah`dan qorxmalı olduqlarını vurğulamışdır.

Qövmü iman etdiyi üçün hz. Şüeybi yurdundan qovmaq və daşqalaq edərək öldürmək istəmişdir. Bunun nəticəsində də başlarına böyük fəlakətlər gəlmişdir. Quranda Şüeyb peyğəmbərin qövmünə qarşı qərarlı və cəsarətli münasibəti nümunə göstərilir:

**Onlar dedilər: "Ey Şüeyb! Dediklərinin çoxunu başa düşmür və səni aramızda zəif görürük. Əgər əşirətin olmasaydı, səni daşqalaq edərdik. Yoxsa sən bizim üçün əziz bir adam deyilsən!"**

**(Şüeyb) dedi: "Ey qövmüm! Məgər mənim əşirətim sizə Allah`dan da əzizdir ki, Onu unudub saymırsınız? Həqiqətən, Rəbbim nə etdiklərinizi biləndir! Ey qövmüm! Əlinizdən**

**gələni edin. Mən də etdiyimi edəcəyəm. Rüsvayedici əzabın kimə gələcəyini və kimin yalançı olduğunu biləcəksiniz. Gözləyin. Doğrusu, mən də sizinlə birlikdə gözləyirəm!" (Hud surəsi, 91-93)**

Hz. Şueybin qövmünə etdiyi təbliğdən və onlara qarşı apardığı mücadilədən bir çox ayədə bəhs edilir:

**Mədyən tayfasına da qardaşları Şüeybi göndərdik. (Şüeyb) onlara belə dedi: "Ey camaatım! Allah`a ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Artıq sizə Rəbbinizdən aşkar bir dəlil gəldi. Ölçüdə və tərəzidə düz olun. Adamların mallarının dəyərini azaltmayın. Yer üzü düzələndən sonra orada fitnə-fəsad törətməyin. Əgər siz möminsinizsə, bu, sizin üçün xeyirlidir! Hər yolun başında əyləşib Allah`a iman gətirənləri qorxudaraq Onun yolundan döndərməyin, onu (Allah yolunu) əymək istəməyin. Xatırlayın ki, bir zaman siz çox az idiniz, amma (Allah) sizi çoxaltdı. Bir görün, fitnə-fəsad törədənlərin axırı necə oldu! Əgər sizin bir qisminiz mənimlə göndərilən (dini hökmlərə) inanmış, bir qisminiz isə inanmamışsa, Allah aramızda öz hökmünü verincəyə qədər səbir edin. Axı O, hökm verənlərin ən yaxşısıdır!" (Şüeyb) tayfasının (iman gətirməyi) özlərinə sığışdırmayan təkəbbürlü əyanları: "Ey Şüeyb! Ya səni və səninlə birlikdə iman gətirənləri məmləkətimizdən mütləq qovacağıq, ya da siz bizim dinimizə dönəcəksiniz!" – dedilər. (Şüeyb) belə cavab verdi: "(Dininizə) nifrət etdiyim halda, beləmi (bizi bu işə məcbur edəcəksiniz)? Allah bizi sizin dininizdən xilas etdikdən sonra biz sizin dininizə dönsək, Allah`a qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəməsə, biz əsla sizin dininizə dönə bilmərik. Rəbbimiz elm ilə hər şeyi ehtiva etmişdir. Biz yalnız**

**Allah`a təvəkkül etmişik. Ey Rəbbimiz! Bizimlə tayfamız arasında ədalətlə hökm et. Axı Sən hökm verənlərin ən yaxşısısan!" (Əraf surəsi, 85-89)**

Bütün elçilər kimi hz. Hud da qövmünü doğru yola dəvət edib, xəbərdar etdiyi zaman hücum və təhdidlərə məruz qalmışdır. Camaat onu dəli adlandırmış, sözləri ilə zərər vermək istəmişdir. Ancaq hz. Hud qövmünün özünə və ətrafındakılarına etdiyi təzyiqləri cəsarətlə qarşılamışdır. Hz. Hudun sözləri Quranda bu cür xəbər verilir:

**(Hud) tayfasının kafir başçıları ona: "Biz səni səfehlik içində görür və yalançılardan hesab edirik!" – deyə cavab verdilər. (Hud) dedi: "Ey camaatım! Mən heç də səfeh deyiləm, lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm! (Əraf surəsi, 66-67)**

**(Hud) onlara belə dedi: "Artıq Rəbbinizdən sizə bir əzab və qəzəb gəlməsi vacib oldu. Sizin və atalarınızın verdiyi adlar barəsində mənimlə mübahisəmi edirsiniz? Halbuki, Allah onlar barədə heç bir dəlil endirməmişdir. Gözləyin! Doğrusu, mən də sizinlə birlikdə gözləyənlərdənəm!" (Əraf surəsi, 71)**

# Nəticə

İnsan bu dünyada çox qısa müddət yaşayır. Əsl yaşayacağı yer sonsuz axirət həyatıdır. Sonsuz həyatda cənnətə layiq qul olmaq üçün bu dünyada Allah`ın rizasını qazanmalıdır. Allah isə insanlardan Özünə qulluq etmələrini və əmr etdiyi gözəl əxlaqı yaşamalarını istəyir.

Allah`ın tövsiyə etdiyi gözəl əxlaq xüsusiyyətlərindən biri də Allah yolundakı fikri mücadilədə möminlərin göstərdikləri cəsarətdir. Allah`ın əmr etdiyi gözəl əxlaqın yaşanmasında və yaşadılmasında böyük cəsarət göstərən peyğəmbərlər və ətraflarındakı möminlər özlərindən sonra gələn müsəlmanlara çox gözəl nümunədirlər. Bu gün yaşayan müsəlmanlar Quranda peyğəmbərlərin mücadilələri ilə əlaqədar olan qissələrdən nümunə götürməlidirlər.

Qurana uyğun cəsarət insanı bir çox maddi-mənəvi qazancla təmin edir. Əvvəla, insan qərarlılıqla Allah rizasına uyğun hərəkət etdikdə vicdanı çox rahat olur. Vicdanı rahat olduğu üçün də firavan yaşayır.

Allah`ın əmr etdiyi gözəl əxlaqı insanlara təbliğ etməkdə cəsur olan möminlər inkarçıların tələlərinə, təzyiq və böhtanlarına fikir vermirlər. Allah`ın əmrini yerinə yetirəcək çox güclü imana sahib olurlar.

Şəxsiyyətləri ilə bütün insanlara nümunədirlər. İman etməyənlər belə, möminlərin bu şövqündən, həyəcanından, cəsarətindən təsirlənir, onlara qarşı qısqanclıqla bərabər paxıllıq edirlər. Qısası, mömінin qərarlılıq və cəsarəti yer üzündəki bütün insanlara nümunədir.

Cəsarət insanın Allah`ın rizasını qazanmasına və Quran əxlaqını yaymasına daha güclü təsir edir. Mömin inkarçıların qarşı gəlməsinə baxmayaraq, təbliğ edərək daha da şövqlənir və böyük həyəcanla Quran əxlaqını yaymağa davam edir.

İnkarçıların təzyiqlərinə baxmayaraq, gözəl əxlaqı yaymaq hər müsəlmanın vəzifəsidir. Əks halda, Allah`ın **"Sizə nə olub ki, Allah yolunda: "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" – deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?" (Nisa surəsi, 75)** ayəsində keçən əmrini yerinə yetirməmiş olacaqlar. Halbuki, vicdan sahibi hər insan həm özünə, həm də başqalarına kifayət edəcək qədər imana və mənəvi gücə sahibdir. Haqsız yerə öldürülən, təzyiq edilən, zülm görən, dünya və axirətdə əzaba düçar olan insanların yaşadığı dünyada öz mənfəətlərinin arxasınca qaçmaq heç bir möminə yaraşmaz.

Bu vəziyyətdə vicdan sahibi hər müsəlman cəsarətini artırmalı, cəsarətini azaldan nə varsa təsbit etməli, Allah qorxusu və imanla möhkəmlənməlidir. Çünki bu dünya həyatı axirət həyatı ilə müqayisədə çox cüzi bir şeydir. (Rəd surəsi, 26)

Bir göz qırpımı qədər olan dünyada cəsur davranmamaq, Allah`ın əmrlərinə qarşı qərarlı olmamaq, şübhəsiz, axirətdə böyük peşmançılığa səbəb olacaq.

Bundan başqa, unutmamaq lazımdır ki, Quran əxlaqını yaşamaq üçün tələb olunan cəsarətlə əlaqədar gözəl nümunələr var. Şanlı türk milləti tarix boyu dünyaya nümunə olacaq şəkildə yaşamış şərəfli tarixə sahibdir. Qətiyyət və güclü xarakterləri ilə dörd qitəyə ədalət aparmış, getdikləri hər yerdə sevinclə qarşılanmış bir dövlətin övladı olmaq böyük qürurdur. Millətimiz keçmişdə olduğu kimi, bu gün də Quran əxlaqını yaşamaq və yaşatmaqda cəsarət göstərir. Çünki millətimizin hər fərdi bir göz qırpımı qədər olan dünyada cəsur davranmasalar, axirətdə böyük peşmanlıq keçirəcəyini bilir.

Allah`dan qorxan iman sahibi türk millətinin fərdləri üçün bu cür peşmanlığı qəbul etmək mümkün deyil.

# ƏLAVƏ BÖLMƏ
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən

digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

2) Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3)Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir. Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi

problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın

hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi

zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> "Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda

mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. *(B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı

təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı

və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

> "Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

> "Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına

baxmayaraq, bu həqiqəti belə etiraf edir:

> "Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". *(Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> "Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu

gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- *Australopithecus*
- *Homo habilis*
- *Homo erectus*
- *Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "Australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha

sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri

birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən

professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və

dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoni-

yaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik im-

pulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda,

qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də**

**pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən**
**başqa bizdə heç bir bilik yoxdur!**
**Həqiqətən, Sən Bilənsən,**
**Müdriksən! (Bəqərə surəsi, 32)**